Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 111 (7838) CÜMƏ, 18 may 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



# Naxçıvan inkişafa görə yenə də liderdir



## Prezidentin qayğısı muxtar respublikanın hərtərəfli yüksəlişinin əsas zəminidir

"...Yadımdadır, 1990-cı illərin əvvəllərində atamın yanına gələrkən qaranlıq içində yaşayırdıq, biz özümüzü şam işığı ilə təmin edirdik. Ulu öndər Heydər Əliyev iş kabinetində neft lampasının işığında işləyirdi. Yəni biz o günləri yaxşı xatırlayırıq".

Mayın 16-da Prezident kimi 14-cü dəfə Naxçıvana səfər edən cənab İlham Əliyev Müəllimlər İnstitutunun yeni binasının açılışında çox da uzaq olmayan zaman kəsiyini xatırlayaraq muxtar respublikanın keçmişi ilə bugünü arasında müqayisə apardı. Təxminən 26-27 il öncə Naxçıvanın yaşadığı çətin və ağrılı günlərlə bugünkü durumunu dəyərləndirən dövlət başçısının fikirləri hər kəsi qürurlandırdı. Çünki bir zamanlar şam, lampa işığına möhtac olan Naxçıvanda bu gün istehsal edilən elektrik enerjisi nəinki özünə bəs edəcək qədərdir, hətta ixracına da imkanı çatır.

### Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan ağır illərdən şərəflə çıxa bilib

Muxtar respublikanın uğurlu inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər sovet dövründə də daim Naxçıvana böyük diqqət göstərib. Prezident səfərində vurğuladı ki, 1990-cı illərin əvvəllərində ulu öndər çox ağır şəraitdə Naxçıvanı böyük bəlalardan qurtara bilib: "Biz hamımız o illəri yaxşı xatırlayırıq, bilirik ki, bizim mənfur düşmənlərimizin niyyəti, eyni zamanda, Naxçıvanı da işğal etməkdən ibarət idi. Naxçıvana qarşı onlar silahlı hücumlar təşkil edirdilər. Ancaq naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşərək düşmənə layiqli cavab verib onları yerinə oturtmuşlar. O illərdə Naxçıvan üçün və ümumiyyətlə Azərbaycan üçün həlledici məsələlər öz həllini tapmışdır. Ulu öndərin rəhbərliyi ilə Naxçıvan o ağır illərdən şərəflə çıxa bilmişdir".

### Naxçıvanda Sovet İttifaqının saxlanmasına dair referendum keçirilməyib

Tarixə bir daha ekuskurs edən İlham Əliyev Azərbaycanın müstəqilliyinin əldə edilməsi prosesində Naxçıvanın çox böyük rolunun olduğunu söylədi. Bildirdi ki, məhz o illərdə ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını Naxçıvanda rəsmi bayraq kimi təsdiq edib və Azərbaycan Ali Soveti qarşısında bu bayrağın dövlət bayrağı kimi qəbul edilməsi ilə bağlı vəsatət qaldırılıb. Ancaq o vaxt Azərbaycan rəhbərliyi buna imkan verməyib: "O vaxt Naxçıvan "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası" adlanırdı və ulu öndərin təklifi ilə bu addan "sovet sosialist" sözləri çıxarıldı. Bu, sovet dövründə baş vermişdir. Sovet İttifaqının saxlanmasına dair referendum Naxçıvanda keçirilmədi. Bütün bu işlər böyük cəsarət tələb edirdi. Bütün bu işlər onu göstərirdi ki, ulu öndər həmişə müstəqillik arzuları ilə yaşayırdı. Azərbaycanın dövlət müstəqilliyinin təmin edilməsində ulu öndərin və naxçıvanlıların çox böyük rolu vardır".

### Dünya miqyasında rekord göstərici

Naxçıvanın son illərdəki uğurlarından söz açan İlham Əliyev qeyd etdi ki, muxtar respublika bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edir. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıb. Bu, həqiqətən dünya miqyasında rekord göstəricidir.

Həqiqətən bu gün Naxçıvanda böyük quruculuq, yaşıllaşdırma işləri aparılır. Muxtar respublikanın uğurlu inkişafı hər bir Azərbaycan vətəndaşının istəyinə bağlı olan məsələdir. Çünki Naxçıvan tarixi diyarımız, qədim Azərbaycan torpağıdır. Burada yerləşən abidələr Azərbaycanın zəngin tarixini və xalqın istedadını göstərir. Bununla yanaşı, Naxçıvan strateji yerdə yerləşir və ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır.

### Naxçıvana 14-cü səfər

Ulu öndərin siyasi xəttinə sadiq qalaraq bütün sahələrdə, o cümlədən Naxçıvana qayğı, diqqət məsələlərində o yolu davam etdirən İlham Əliyev Prezident kimi ilk dəfə Naxçıvana səfərini də xatırladı: "Bu səfər mənim Prezident kimi Naxçıvana sayca 14-cü səfərimdir. Prezident kimi ilk dəfə Naxçıvana düz 14 il bundan əvvəl - 2004-cü ilin may ayında gəlmişdim. Bu 14 il ərzində Naxçıvanda gedən işləri daim diqqətdə saxlamışam və respublikanın uğurlu inkişafı üçün nə lazımdırsa, biz onu da edirik".

Prezident vurğuladı ki, bu illər ərzində ilk növbədə Naxçıvanın təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük işlər görülüb. Muxtar respublika düşmənlə üz-üzə dayandığı üçün, əlbəttə ki, ilk növbədə uğurlu inkişaf üçün təhlükəsizlik tədbirləri ön planda və prioritet məsələ olmalıdır. Bu səbəbdən də Naxçıvanın hərbi potensialının gücləndirilməsində böyük işlər görülüb.

Ardı 5-ci səh.

## Bakı şəhəri Sabunçu rayonunun Ramana qəsəbəsi ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Sabunçu rayonunun Ramana qəsəbəsi ərazisində on üç min nəfər əhalinin istifadə etdiyi, ümumi uzunluğu 3,2 kilometr olan avtomobil yolunun yenidən qurulması məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,7 milyon (üç milyon yeddi yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2018-ci il*

## Mikayıl Müşfiqin 110 illiyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci ilin iyun ayında Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Mikayıl Müşfiqin (Mikayıl Mirzə Əbdülqadir oğlu İsmayılzadənin) anadan olmasının 110 illiyi tamam olur.

Böyük şair Mikayıl Müşfiq milli folklordan və klassik ədəbi ənənələrdən layiqincə bəhrələnməklə yaratdığı dərin lirizmə malik və doğma dilin bütün gözəlliklərini özündə ehtiva edən bənzərsiz poetik nümunələrlə Azərbaycanın çoxəsrlik bədii fikir xəzinəsini daha da zənginləşdirmişdir. Forma yeniliyi, məzmun genişliyi, romantik əhval və yüksək həyat eşqi bu söz sənəti incilərinin başlıca keyfiyyətləridir. Müşfiqin adı 1930-cu illər totalitarizminin qurbanına çevrilmiş məsum insanların xatirəsinin rəmzi və nakam şair obrazı kimi xalqın yaddaşında yaşamaqdadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının inkişafına dəyərli töhfələr vermiş görkəmli şair Mikayıl Müşfiqin anadan olmasının 110-cu ildönümünün layiqincə qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Mikayıl Müşfiqin 110 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2018-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edir, ali dövləti fəaliyyətinizdə daha böyük uğurlar arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, Makedoniya Respublikası ilə Azərbaycan Respublikası arasında yüksək səviyyəli dostluq əlaqələrindən məmnunluğumu ifadə etmək istəyirəm. Ən yüksək səviyyədə siyasi dialoq ölkələrimizin gələcək inkişafının və əməkdaşlığının xüsusən iqtisadiyyat, enerji, mədəniyyət, elm və təhsil kimi qarşılıqlı maraq doğuran sahələrdə dərinləşməsini təmin edən əsas amillərdir. Əminəm ki, əməkdaşlığımız və əldə olunmuş siyasi əlaqələrimiz qarşıdan gələn dövrdə birgə səylərimizlə daha sürətlə inkişaf edəcəkdir.

Sizə beynəlxalq aləmdə xüsusi yeri olan, siyasi və hökumətlər səviyyəsində qərarların qəbul edilməsində uzunmüddətli tərəfdaş olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə və səylərinə görə minnətdarlığımı bildirirəm. Bu beynəlxalq mərkəzin fəaliyyətini və rolunu çox yüksək qiymətləndirir, onun regionda əməkdaşlığın və dialoqun təşviqinə yönələn görüşlərində iştirak etməkdən məmnunluğumu ifadə edirəm.

Cənab Prezident, Sizə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***George İVANOV,***
***Makedoniya Respublikasının Prezidenti***

Zati-aliləri, möhtərəm cənab Prezident!

İcazə verin, Azərbaycan Respublikası Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Beynəlxalq Elmi və Texniki İnformasiya Mərkəzi qeyri-hökumət təşkilatının üzvü olan 22 dövlətin səlahiyyətli nümayəndələrinin şəxsində bu təşkilatın rəhbərliyi adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi çatdırım.

Azərbaycan bu təşkilata daxil olduğu vaxtdan MDB ölkələrində vahid elmi-informasiya məkanının formalaşmasına, iqtisadi, təhsil və elmi tədqiqat sahələrində innovativ dəyişikliklər mühitinin yaradılmasına sanballı və konstruktiv töhfələr verir.

Azərbaycanda elmə və innovasiyalı inkişafa həmişə böyük diqqət yetirilir. Xüsusən, son onillikdə ölkənin milli elmi-texniki kompleksinin sanballı nailiyyətləri göz qabağındadır. Bizim mərkəzdə belə bir qəti inam yaranıb ki, təşkilatımızın fəaliyyətində Azərbaycanın genişmiqyaslı iştirakı və bunun üzv dövlətlərin elmi birliyi üçün müsbət səmərəsi daha ciddi artım potensialına malikdir. Bununla əlaqədar ölkənizin səlahiyyətli dövlət təsisatlarının mərkəzin işində rolunun daha da möhkəmləndirilməsində maraqlıyıq.

Möhtərəm İlham Heydər oğlu, icazə verin, əmin olduğumu bildirim ki, Azərbaycan dövlətinə rəhbərlik edəcəyiniz qarşıdakı illərdə də Beynəlxalq Elmi və Texniki İnformasiya Mərkəzinin işində Azərbaycanın iştirakının müsbət təcrübəsi və meyilləri qorunub saxlanılacaq və artırılacaq.

*Dərin hörmətlə,*

***Yevgeni UQRİNOVİÇ,***
***Beynəlxalq Elmi və Texniki İnformasiya Mərkəzinin baş direktoru***

*Rusiya Federasiyası, Moskva şəhəri*

# Bakı bölgənin sərfəli ticarət mərkəzinə çevrilir




## 800-dən çox mağazada "Əvvəlcə alış-veriş et, sonra pulunun bir qismini geri al" kampaniyası davam edir

**Paytaxt sakinlərinin və turistlərin böyük rəğbətini qazanan Bakı Şopinq Festivalı artıq iki həftədən çoxdur ki, alış-veriş həvəskarlarını sevindirməyə davam edir. Başlandığı ilk ildən böyük uğurlar əldə edərək beynəlxalq ictimaiyyətin marağına səbəb olan festival Azərbaycanda və regionda ilk dəfə keçirilməsinə baxmayaraq, qısa zamanda yüksək etibar qazanıb.**

### Budəfəki festivalda da supermarketlər iştirak edir

Öncə onu vurğulayaq ki, 2017-ci ildə iki uğurlu festival keçirilib. Bu müddətdə, ümumilikdə, 665 mağaza iştirakçı qismində festivala qoşulub. Həmin mağazalarda festival çərçivəsində 71 min 331 ədəd ƏDV qaytarılması əməliyyatı həyata keçirilib. Yerli alıcılarla yanaşı, ƏDV qaytarılması imkanından yararlanan turistlərin sayı isə 6 min 534 nəfər olub.

III şopinq festivalında isə alıcılara 800-dən çox mağazada sərfəli alış-veriş imkanı təqdim olunur. Festivala qoşulan mağazalardan yüksəkkeyfiyyətli geyim, elektronika, məişət texnikası, mebel, ətriyyat və kosmetika, eləcə də digər məhsulları endirimlərlə əldə etmək olar. Payız festivalında olduğu kimi, bu dəfə də supermarketlər festivalda iştirak edir. Festivalın məqsədi Azərbaycanda ticarət dövriyyəsini inkişaf etdirmək, genişləndirmək, turizmə əlavə stimul yaratmaq, yerli istehsalı və sahibkarlığı hərəkətə gətirmək, qeyri-neft-sektorunun yeni bir yolla canlanmasına nail olmaqdır.

### Saysız endirimlər, maraqlı şou proqramları və cəlbedici kampaniyalar

Mayın 31-dək davam edəcək festivalın gedişatı ilə maraqlanmaq üçün paytaxtın böyük ticarət mərkəzlərindən birinə yollandıq. Gəlişimiz axşama doğru düşdüyü üçün ticarət mərkəzinin dəhlizlərində gedib-gələnlər çoxluq təşkil edirdi.

Bakı Ticarət Festivalına qoşulmuş mağazaları axtarıb tapmaq çətin olmur. ƏDV qaytarılması sisteminə qoşulmuş obyektlərin üzərində xüsusi "Baku Shopping Festival - Tax Free" stikeri yerləşdirilib. Yalnız həmin nişan olan obyektlərdən mal alan vətəndaşlara ƏDV qaytarılması nəzərdə tutulub. Həmin mağazaları bir-bir gəzirik.

İlk baş çəkdiyimiz mağazanın meneceri Zaur Əliyev festivalın keçirilməsini müsbət qiymətləndirir. O, gün keçdikcə müştərilərinin sayının artdığını deyir: "Festival zamanı alıcıların həvəslə alış-veriş etməsini görürük. Kampaniyadan xəbəri olmayan müştərilərə isə satıcılar ətraflı məlumat verirlər. Bəzən müştəri alış-veriş edib kassaya yaxınlaşanda onlara deyirik ki, aldığınız malın qiyməti 100 manatı keçirsə, bu cür güzəştlərdən faydalana, onların vergisini gedib banklardan geri götürə bilərsiniz. Onda müştəri özü bu fürsətdən istifadə etməkdə maraqlı olur".

### Mağazada alıcıların çoxaldığı hiss olunur

Digər mağazanın xəzinədarı Orxan Hacıyev isə festival endirimlərindən yararlanan müştərilər arasında yerli əhalinin üstünlük təşkil etdiyini deyir. Onun sözlərinə görə, festival çərçivəsində mağazada alıcıların artımı hiss olunur: "Bəzi müştərilərin festivaldan xəbəri olmasa da, satıcılar onları məlumatlandırır. Demək olar ki, mağazamızdakı bütün kolleksiyalara endirim var".

Bakı Ticarət Festivalı çərçivəsində xidmət göstərən başqa bir mağazada müştəri kimi dolaşırıq. Endirimə qoyulan malları gözdən keçiririk. Sonra mağazanın işçisi Fuad Əlizadə ilə söhbətləşirik.

Ardı 3-cü səh.

"Made In Azerbaijan"

# Zaqatala balı Yaponiyada satılır




## İxracın daha da genişləndirilməsi üçün istehsalçılardan beynəlxalq standartlara uyğunluğu təsdiqləyən sertifikat tələb olunur

Arıçılıq Zaqatalada geniş yayılmış sahələrdəndir. Bu sahənin inkişafı, ixracın genişləndirilməsi məqsədilə rayonda "Boz Qafqaz" cinsinə mənsub arılar yetişdirilərək artırılır və fermerlər yüksək məhsuldar, cavan arı ailələri ilə təmin edilirlər. Hazırda rayonun 1100-dən artıq arıçılıq təsərrüfatında 21 minədək əsasən "Boz Qafqaz" və "Karpat" cinsinə mənsub arı ailəsi saxlanılır. Bu təsərrüfatlarda il ərzində təxminən 200 ton bal, 3 ton mum, 300 kiloqram çiçək tozu, 100 kiloqram vərəmum, 5-6 kiloqram arı südü əldə edilir.

Azərbaycan Arıçılar Assosiasiyasının Zaqatala rayon şöbəsinin rəhbəri və arıçılıq fəaliyyəti ilə məşğul olan Möhbüddin Qurbanəliyev deyir ki, arıçılığa dəstək üçün hər arı ailəsinə görə 5 il müddətinə 10 manat subsidiya ayrılması yaxşı haldır: "Bu vəsait 50-100 arı ailəsi olan arıçının köç və dərman preparatları ilə təmin olunmasına böyük dəstəkdir". M.Qurbanəliyev 1985-1993-cü illər ərzində rayondakı arıçılıq sovxozunda işləyib. Ölkədə gedən torpaq islahatından sonra pay şəklində ona düşən az sayda arıdan təsərrüfat yaradıb və tədricən arı ailələrinin sayını artırıb. ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi və Türkiyənin TİKA təşkilatı ilə sıx əlaqə qurub. Hazırda təxminən 300-ə yaxın arı təknəsi olan M.Qurbanəliyev bu işlə ailəlikcə məşğuldur.

Ardı 3-cü səh.

## "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununu "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114; 2003, № 6, maddə 277; 2004, № 8, maddə 598, № 11, maddə 901, № 12, maddə 973; 2007, № 1, maddə 3, № 6, maddə 562, № 11, maddə 1053; 2008, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 952; 2010, № 2, maddə 75, № 7, maddə 591; 2011, № 6, maddə 482, № 7, maddə 618; 2012, № 11, maddə 1052; 2013, № 6, maddə 613, № 7, maddə 787, № 12, maddə 1494; 2015, № 12, maddə 1434; 2016, № 12, maddə 2050; 2017, № 2, maddə 156, № 6, maddə 1056, № 8, maddə 1511) 67-ci maddəsinin adında və mətnində aşağıdakı dəyişikliklər edilsin:

1. ", habelə işsizliyə görə" sözləri çıxarılsın.

2. "müavinətlərə" sözündən sonra "və işsizlikdən sığorta ödənişinə" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2018-ci il*

## "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1080-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1080-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 may 2018-ci il*

## "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununu "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193) 21.2.5-ci maddəsində "işsizlik müavinətinin" sözləri "işsizlikdən sığorta ödənişinin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2018-ci il*

## "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1078-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1078-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2018-ci il*

## "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununu "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477; 2001, № 11, maddə 687, № 12, maddələr 731, 736; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 561, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2010, № 4, maddə 275; 2013, № 5, maddə 477; 2016, № 11, maddə 1765) 8-ci maddəsinin beşinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. birinci cümlə çıxarılsın.

2. ikinci cümlədə "bu müddət ərzində həmin kateqoriyadan olan şəxslərin" sözləri "valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə onların arasından olan şəxslərin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2018-ci il*

## "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1085-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1085-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2018-ci il*

## "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununu "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 76; 2007, № 10, maddə 933; 2008, № 6, maddələr 464, 475; 2013, № 1, maddə 19, № 6, maddə 618, № 11, maddələr 1240, 1306; 2017, № 7, maddə 1278; Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1033-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 4.0.1.11-ci, 7.0.10-1-ci, 9.4-cü və 11.3-cü maddələr ləğv edilsin.

2. 6.2-ci maddədən "və işsizlik müavinəti" sözləri çıxarılsın.

3. 7.0.13-cü maddədə "və 4.0.1.11-ci" sözləri çıxarılsın və "şəxs" sözündən sonra ", "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq işsizlikdən sığorta ödənişini alan şəxs" sözləri əlavə edilsin;

4. 8-ci maddə üzrə:

4.1. birinci cümlədən "işsizlik müavinəti və" sözləri çıxarılsın;

4.2. ikinci cümlədə "İşsizlik müavinətinin məbləği "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa, vəfat" sözləri "Vəfat" sözü ilə əvəz edilsin və "isə" sözü çıxarılsın.

5. 9.1-ci maddədən "işsizlik müavinəti və" sözləri çıxarılsın.

6. 10.1-ci maddənin birinci cümləsindən "(işsizlik müavinəti istisna olmaqla)" sözləri və ikinci cümləsi çıxarılsın.

7. 11.1-ci, 12.1-ci və 12.2-ci maddələrdən "(işsizlik müavinəti istisna olmaqla)" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2018-ci il*

## "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1082-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1082-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 may 2018-ci il*

## "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununu "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348; 1999, № 11, maddə 609; 2000, № 11, maddə 776; 2001, № 9, maddə 576, № 12, maddələr 733, 736; 2002, № 12, maddə 706; 2004, № 7, maddə 505, № 12, maddə 976; 2005, № 1, maddə 2, № 12, maddə 1082; 2006, № 11, maddə 923, № 12, maddə 1018; 2007, № 1, maddə 4, № 12, maddə 1193; 2008, № 2, maddə 49, № 4, maddə 254, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 970; 2010, № 4, maddə 276, № 11, maddə 949; 2011, № 10, maddə 883; 2013, № 11, maddə 1284, № 12, maddə 1487; 2014, № 10, maddə 1171; 2016, № 4, maddə 657, № 6, maddə 971; 2017, № 3, maddə 336, № 7, maddə 1279, Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 976-VQD nömrəli və 6 mart tarixli 1029-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü maddənin ikinci hissəsinin onuncu abzasının sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və on birinci abzası ləğv edilsin;

2. 6-cı maddənin birinci hissəsinin doqquzuncu abzasının sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və onuncu abzası ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2018-ci il*

## "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1083-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1083-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 may 2018-ci il*

## Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 1, maddələr 11-12; 2005, № 10, maddə 906; 2006, № 10, maddə 834; 2010, № 11, maddə 920; 2011, № 12, maddə 1083) aşağıdakı dəyişikliklər təsdiq edilsin:

1. 8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 8. Naxçıvan Muxtar Respublikasında vətəndaşların seçki hüququ

I. Naxçıvan Muxtar Respublikasının ərazisində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları seçmək və seçilmək hüququna malikdirlər.

II. Məhkəmələr tərəfindən fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə iştirak etmək hüququ yoxdur.

III. Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçilmək hüququ qanunla məhdudlaşdırıla bilər.".

2. 15-ci maddənin I hissəsində "yaşı 25-dən aşağı olmayan" sözləri "seçkilərdə iştirak etmək hüququna malik olan" sözləri ilə əvəz edilsin.

3. 19-cu maddənin I hissəsinin birinci bəndinin 5-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin bəndə aşağıdakı məzmunda 6-cı və 7-ci yarımbəndlər əlavə edilsin:

"6) bu Konstitusiyanın 23-cü maddəsinin III hissəsinin tələbini pozduqda;

7) deputat üçün qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozduqda.".

4. 29-cu maddənin II hissəsindən "Yaşı otuzdan aşağı olmayan," sözləri çıxarılsın.

5. 41-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Naxçıvan Muxtar Respublikasının Baş naziri, Baş nazirin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanının rəhbəri vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir.".

6. 43-cü maddənin III hissəsində "Azərbaycan Respublikasının Konstitusiyası" sözləri "Konstitusiya" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2018-ci il*

## X.Ş.İsgəndərovun Bakı Şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin 2-ci hissəsini rəhbər tutaraq **qərara alıram:**

Xaləddin Şahmar oğlu İsgəndərov Bakı Şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2018-ci il*

# Vyaçeslav MAKAROV: "Sankt-Peterburq və onun qanunvericilik orqanı Azərbaycanla əlaqələrin inkişafına böyük maraq göstərir"



Mayın 17-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Sankt-Peterburq Qanunvericilik Məclisinin sədri Vyaçeslav Makarovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Sədr səfər çərçivəsində qonaqların Rus Mədəniyyət Mərkəzinin açılışında, "Rus İcması - Yeni Azərbaycanın xalqları ailəsində 25 il" mövzusunda keçiriləcək konfransda iştiraklarının əlaqələrimizin daha da dərinləşməsinə xidmət edəcəyinə inandığını bildirib.

Parlamentin sədri Azərbaycanla Rusiya arasında siyasi dialoqun yüksək səviyyədə olduğuna diqqət çəkərək bildirib ki, ölkə başçılarının qarşılıqlı səfərləri, dövlətlərimiz arasında imzalanmış sənədlər əməkdaşlığımızın keyfiyyətcə yeni səviyyəyə yüksəlməsində mühüm rol oynayıb. Milli Məclislə Rusiya Federal Şurası və Dövlət Duması arasında əlaqələrin yüksələn xətlə inkişaf etdiyini bildirən spiker Rusiyanın subyektlərinin qanunvericilik orqanları ilə də münasibətlərdə bu dinamikanın saxlanıldığını söyləyib. Qeyd edilib ki, son dövrdə bu ölkənin subyektləri ilə humanitar, mədəni sahələrdə əməkdaşlığın daha da dərinləşməsi prioritet sahə kimi özünü göstərməkdədir.

Azərbaycanla Sankt-Peterburq arasında münasibətlərin möhkəm tarixi zəmin üzərində qurulduğunu bildirən Milli Məclisin Sədri bu gün də humanitar, elm, təhsil, mədəni sahələrdə əlaqələrimizin daha da dərinləşməsini təqdirəlayiq hesab edib. Bildirilib ki, azərbaycanlı deputatlar tez-tez bu şəhərdə səfərlərdə olur, MDB PA-nın iclaslarında fəal iştirak edirlər. Nümayəndə heyətlərimizin nüfuzlu beynəlxalq qurumlar çərçivəsində mütəmadi görüşləri təcrübə və informasiya mübadiləsi baxımından çox önəmlidir.

Sədr Azərbaycanda böyük rus icmasının mövcudluğu barədə danışaraq, ölkədə rusdilli təhsil ocaqlarının fəaliyyət göstərdiyini, rusdilli mətbu nəşrlərin geniş oxucu kütləsi olduğunu deyib. Bildirilib ki, Azərbaycanda yaşayan ruslar digər ölkə vətəndaşları kimi Konstitusiya ilə onlara verilmiş hüquq və azadlıqlardan sərbəst şəkildə istifadə edirlər.

Rusiya Federasiyası Sankt-Peterburq Qanunvericilik Məclisinin sədri Vyaçeslav Makarov ölkəmizə səfərlərindən və burada gördüklərindən məmnun qaldıqlarını söyləyib. Bildirilib ki, Sankt-Peterburq və onun qanunvericilik orqanı Azərbaycanla əlaqələrin inkişafına böyük maraq göstərir. Tarixən Nevanın sahilindəki bu şəhərlə Azərbaycan arasında həyatın müxtəlif sahələrində sıx əlaqələr mövcud olub. Münasibətlərimizin bugünkü inkişafı xalqlarımızın ümumi mənafelərinə xidmət edir.

Qonaq Sankt-Peterburqda Azərbaycan diasporunun fəaliyyətini, burada yaşayan soydaşlarımızın şəhərin sosial-iqtisadi həyatındakı iştirakını təqdirəlayiq hesab edib.

Söhbət zamanı tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclis Sədrinin müavini Valeh Ələsgərov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, deputat Mixail Zabelin və digər rəsmi şəxslər iştirak ediblər.

*AZƏRTAC*

*Foto Fərman BAĞIROVUNDUR*

# Müdafiə naziri Azərbaycan, Türkiyə və Gürcüstan hərbi təhsil müəssisələrinin rəhbərləri ilə görüşüb

Mayın 17-də müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan Ali Hərbi Məktəbinin rəisi, general-mayor Füzuli Salahov, Türkiyə Respublikası Quru Qoşunları Məktəbinin rəisi, briqada generalı İsmayıl Güzeller və Gürcüstan Milli Müdafiə Akademiyasının rektoru, polkovnik Zaza Caparidze ilə görüşüb.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, martın 31-də Giresun şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan arasında imzalan müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumuna əsasən, hər üç ölkənin hərbi təhsil müəssisələri rəhbərlərinin Bakıda keçirilən görüşü çərçivəsində aparılan müzakirələrin, təcrübə mübadiləsinin mühüm əhəmiyyət kəsb etdiyini deyən müdafiə naziri belə tədbirlərin mütəmadi keçirilməsinin vacibliyini vurğulayıb.

General-polkovnik Z.Həsənov Azərbaycan, Türkiyə və Gürcüstan hərbi təhsil müəssisələri rəhbərlərinin Bakıdakı tədbirinin hər üç ölkənin müdafiə nazirləri və Silahlı Qüvvələri Baş Qərargah rəislərinin bu günədək keçirdikləri görüşlərin davamı kimi qiymətləndirib, bu əməkdaşlığın regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə mühüm töhfə verəcəyinə əminliyini bildirib.

Tərəflər, həmçinin hər üç ölkənin hərbi təhsil müəssisələri arasında kursantların qarşılıqlı təhsil almaları, birgə təlimlərin, idman, bilik yarışlarının keçirilməsi və bir sıra digər məsələləri müzakirə ediblər.

Görüşün təşkilinə və qonaqpərvərliyə görə general-polkovnik Z.Həsənova minnətdarlıqlarını ifadə edən məktəb rəhbərləri də Bakıda aparılan üçtərəfli səmərəli müzakirələrin təmsil etdikləri ali hərbi təhsil müəssisələri arasında əlaqələrin daha da inkişafına, birgə fəaliyyətlərin həyata keçirilməsi işinə mühüm töhfələr verəcəyinə əminliklərini bildiriblər.

# Zaqatala balı Yaponiyada satılır

## İxracın daha da genişləndirilməsi üçün istehsalçılardan beynəlxalq standartlara uyğunluğu təsdiqləyən sertifikat tələb olunur

*Əvvəli 1-ci səh.*



O bildirir ki, iki il əvvəl yaradılmış Arıçılar Assosiasiyası arıçılığın inkişafına təkan verir. Məhz bu qurum çərçivəsində rayondakı arıçılar qeydiyyata alınır və onlar üzvlüyə qəbul edilir. Artıq üzvlərin sayı 380 nəfərdən çoxdur. Onların bəzilərinin hətta öz əmtəə nişanları altında ştrix-kodu, sertifikatı var.

M.Qurbanəliyev hazırda 5-6 adda arı məhsulunun realizəsi ilə məşğuldur. O, bu işdə təcrübə toplamaq üçün ABŞ, Almaniya, İsveçrə, İngiltərə və Türkiyədə olub. Həmin ölkələrdə öyrənib ki, dünyada 14 adda arı məhsulu var. Azərbaycanda isə onların çoxu haqqında, demək olar ki, məlumat yoxdur.

Hazırda istehsal olunan məhsulun kütləvi satışında müəyyən çətinliklər olduğunu deyən müsahibimizin sözlərinə görə, hələ də məhsullarını marketlərə çıxarmaqda problemləri var: "Bunun üçün sertifikatlar lazımdır. İndi bu məsələni həll etməyə çalışırıq". Strateji hədəf isə bu əvəzsiz nemətin xarici bazara çıxışına nail olmaqdır. Hətta xaricə çıxış üzrə ilk addım da atılıb. Keçən il 13 ton Zaqatala balı "Made In Azerbaijan" brendi altında Yaponiyaya ixrac olunub. Amma sifarişçinin göndərdiyi 45 kiloqramlıq çəlləklərdə. Onlar üçün maraqlı olan ilk vacib amil balın ekoloji təmizliyi, tərkibində kimyəvi qatqının olmamasıdır. Bundan başqa, arıya verilən ammitrat tərkibli dərmanlardan imtina edilməsi də tələblər sırasındadır. Arı dərman vurulmuş meşə zolağı və ya tarladan şirə çəkərsə, həmin balda kimyəvi qatqı qala bilər. Ona görə də Türkiyədə artıq həmin dərmanlar istifadə edilmir.

Müsahibimiz deyir ki, müraciət əsasında Birləşmiş Ərəb Əmirliklərinə analiz üçün bal göndərilib. 10 gündən sonra cavab gəlib ki, bal analizdən keçib. Tərkibi çox zəngin, təbii və heç bir kimyəvi qatqısı yoxdur. Lakin tələb ondan ibarətdir ki, mütləq bunun üçün dünyada qəbul edilən İMO və İSO standartlarına uyğunluğu təsdiqləyən sertifikat olmalıdır. Bu olarsa, Ərəbistana arı məhsullarını ixrac etmək mümkündür.

2011-2015-ci illərdə Almaniya Əməkdaşlıq Təşkilatı ilə əlaqəli işlədiklərini deyən həmsöhbətimizin sözlərinə görə, onlara orqanik sertifikat veriləcəkmiş. Lakin bəzi texniki problemlər prosesi başa çatdırmağı əngəlləyib.

Bu günlərdə isə BMT-nin ekologiyanın qorunması və kənd təsərrüfatı sahəsinə dəstək verən proqram layihəsinin nümayəndələri Zaqatalada arıçılara qonaq olublar. Onlar ümumi vəziyyətlə bağlı tanışlıqdan sonra bu yöndə yayda proqram layihə reallaşdıracaqlarını və həmin sertifikatı verməyə hazır olduqlarını bildiriblər.

Görünən odur ki, tonlarla Azərbaycan balını "Made In Azerbaijan" brendi altında ixrac etmək imkanı yaranıb. Bunun üçün keyfiyyətli məhsul da var, potensial alıcılar da... Qalır indiyədək diqqətdən kənarda qalan bir sıra texniki məsələlərin həlli. Onlar da yoluna qoyulduqdan sonra, yəqin ki, arıçılıqla məşğul olan fermerlər xarici bazarlara çıxa biləcəklər.

*Əli SƏLİMOV,*
*"Azərbaycan"*

# Azərbaycan XİN Laçının işğalının 26-cı ildönümü ilə əlaqədar açıqlama yayıb

Azərbaycan Respublikasının Laçın rayonunun işğalının 26-cı ildönümü ilə əlaqədar Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev açıqlama yayıb.

AZƏRTAC-a daxil olan açıqlamada deyilir: Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı hərbi təcavüzünün davamı kimi 1992-ci il mayın 18-də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olmayan Laçın rayonu işğal edilib. İşğal nəticəsində Laçın rayonunun əhalisi etnik təmizləməyə məruz qalıb və hazırda 77 min nəfərdən artıq Laçın sakini Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün kimi yaşayır. Ermənistan tərəfindən rayonda dövlət və özəl mülkiyyətə ciddi zərər yetirilib. Belə ki, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri talan və məhv edilib.

54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalıb. VI əsrə aid Alban Ağoğlan məbədi, XIV əsrə aid Məlik Əjdər türbəsi, Qaraqışlaq kəndində məscid, Zabux kəndində qədim qəbiristanlıq bunların sırasındadır. Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası talan edilib. Həmçinin talan edilmiş Laçın Tarix Muzeyinin eksponatı olan gümüş əl çantası Londonda Sotheby`s auksionunda 80 min ABŞ dollarına satılıb.

Ermənistan işğalçı tərəf olaraq Cenevrə Konvensiyaları ilə üzərinə düşən öhdəlikləri ni kobud şəkildə pozaraq, Laçın rayonunda coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi və qazanc mənbəyinə çevrilməsi, əsasən Suriyadan olan erməni əsilli qaçqınlar olmaqla, məqsədyönlü məskunlaşma siyasəti apararaq, demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni əməllərini davam etdirir.

Avropa İnsan Hüquqları Məhkəməsi "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə Azərbaycanın Laçın rayonundan məcburi qovulmuş Azərbaycan vətəndaşlarının xeyrinə qərar qəbul edərək, onların İnsan Hüquqları və Fundamental Azadlıqların qorunmasına dair Konvensiya üzrə mülkiyyət hüququ, şəxsi və ailə həyatına hörmət kimi hüquqlarının pozulduğunu təsbit edib. Həmçinin qərarın 19-20-ci paraqraflarında Laçın rayonu, xüsusən Laçın şəhərinin hərbi hücuma məruz qalması, 1992-ci il may ayının ortalarında Laçının havadan bombardman edilməsi və bunun nəticəsində çoxlu sayda evlərin dağıdılması, şəhərin talan edilməsi və yandırılması, hərbi münaqişə dövründə Laçın və ətraf kəndlərin tamamilə dağıdılması öz təsdiqini tapıb.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ətraf rayonların Ermənistan silahlı qüvvələri tərəfindən işğalı, işğal olunmuş rayonların azərbaycanlı sakinlərinə qarşı etnik təmizləmənin törədilməsi Ermənistanın əsl niyyətinin hərbi təcavüz və işğal yolu ilə ərazi əldə edilməsi olduğunu qabarıq şəkildə nümayiş etdirir.

Ermənistanın kəskinləşən hərbi təcavüzü şəraitində BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə 822 (1993-cü il), 853 (1993-cü il), 874 (1993-cü il) və 884 (1993-cü il) saylı qətnamələri qəbul edərək, Azərbaycan ərazilərinin işğalını pisləyib, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiq edərək işğalçı qüvvələrin zəbt olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edib. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərini yerinə yetirməyərək işğal olunmuş Azərbaycan ərazilərinin ilhaq edilməsinə (anneksiya) yönəlmiş siyasət yürüdür.

Beynəlxalq hüququn imperativ normaları və BMT Nizamnaməsinə zidd olaraq Ermənistan tərəfindən Azərbaycana qarşı qeyri-qanuni gücdən istifadənin, həmçinin Azərbaycanın işğal olunmuş ərazilərindən 700 mindən artıq köklü Azərbaycan əhalisinin zorla qovulması ilə onların fundamental hüquq və azadlıqlarının kütləvi pozulmasının nəticələrinin Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan sayı 90 mindən az olan erməni azlığın "öz müqəddəratını təyin etmək" və "insan hüquqları" kontekstində təqdim etmək cəhdləri cəfəngiyatdır və heç bir mənəvi, hüquqi və siyasi çərçivəyə sığmır.

Ermənistan nəhayət başa düşməlidir ki, Azərbaycan ərazilərinin işğal altında saxlanması heç zaman Ermənistanın güddüyü siyasi nəticələri verə bilməz və işğala əsaslanan status-kvo Ermənistanın özünü təcridinin və bugünkü sistematik sosial-iqtisadi və demoqrafik böhranının əsas səbəblərindəndir. Azərbaycan ərazilərinin işğalına son qoyulması və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması hərtərəfli regional əməkdaşlıq üçün imkanlar aça və davamlı sülhün təmin olunmasına töhfə verə bilər.

Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinin bərpa edilməsi Laçın, habelə ölkənin digər işğal olunmuş rayonlarından olan məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmaq kimi hüquqlarının təmin edilməsi və ümumilikdə münaqişənin ağır fəsadlarının aradan qaldırılması beynəlxalq ictimaiyyətin öhdəliyi olmaqla yanaşı, BMT Nizamnaməsində təsbit edildiyi kimi, Azərbaycan dövlətinin şəksiz ayrılmaz hüququdur.

Azərbaycan tərəfi münaqişənin tezliklə həlli istiqamətində beynəlxalq səylərin artırılmasını dəstəkləyərək beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini və vətəndaşlarının pozulmuş hüquqlarını bərpa etmək hüququnu özündə saxlayır.

# Bakı bölgənin sərfəli ticarət mərkəzinə çevrilir

## 800-dən çox mağazada "Əvvəlcə alış-veriş et, sonra pulunun bir qismini geri al" kampaniyası davam edir






*Əvvəli 1-ci səh.*

O öz təəssüratlarını bizimlə bölüşür: "Ölkəmizdə üçüncü dəfə belə bir festivalın keçirilməsi təqdirəlayiq haldır. Bu həm də alıcılar üçün çox xoşdur. Müştəri 100 manatdan artıq alış-veriş edərsə, kampaniyada iştirak etmək hüququ qazanır. Festival zamanı alıcılıq qabiliyyətinin yüksək olması bizi qane edir. Mağazamızda isə malların 90 faizinə endirim var".

Elə həmin mağazada qeydiyyatçı Gülxanım Yolçiyevadan festivalın gedişatı ilə bağlı fikirlərini soruşduq. O, festivalın başladığı ilk gündən heç bir problem yaşanmadığını, sistemin tam normal və qaydasında işlədiyini söylədi.

### Həvəslə alış-veriş edənlər və endirimdən faydalananlar

Festival endirimlərindən yararlanan müştərilər arasında yerli əhalinin üstünlük təşkil etdiklərini görüb onlardan bir neçəsinin rəyini öyrəndik. Bakı şəhər sakini Günay Kərimova belə bir festivalın təşkilindən məmnunluğunu dilə gətirdi: "Xarici ölkələrin bəzilərində ticarət festivallarının təşkil olunduğunu bilirdik. Bizdə də belə bir tədbirin keçirilməsi ürəkaçandır. Festivala qoşulmuş mağazalardakı mallarla tanışlığa bu gündən başlamışam, istəyirəm ki, endirimlərdən faydalanam".

Aytən Vəliyeva üçüncü dəfə keçirilən şopinq festivalından razılığını bildirdi. O bu festivalın insanların həvəslə alış-veriş etməsinə səbəb olduğunu dedi.

### 10 mindən çox dəyərli hədiyyə

"Alış-verişiniz sizə hədiyyə qazandırsın!" şüarı ilə mayın 1-dən açıq elan edilən festivalın onlayn lotereyası bu vaxt ərzində yüzlərlə iştirakçıya dəyərli hədiyyələr qazandırıb. Ötən həftə Bakı Şopinq Festivalında alış-veriş etməklə lotereya iştirakçısına çevrilən alıcılardan bir çoxu artıq uduşda qalib olaraq qiymətli hədiyyələrə sahib çıxıb.

Mayın 31-dək davam edəcək festival müddətində alış-veriş etməklə onlayn lotereyanın birbaşa iştirakçısına çevrilən alıcılar 10 mindən çox dəyərli hədiyyəyə və əsas uduş olan "Nissan Sunny" avtomobilinə sahib olmaq imkanı qazanırlar.

Bunun üçün heç bir lotereya bileti almağa ehtiyac yoxdur. Sadəcə alış-verişinizi təsdiqləyən sənəd (çek və ya VHF) sizin lotereya biletinizə çevriləcək.

Bütün bunlarla yanaşı, festival zamanı həftəsonu əyləncəli oyunlar, moda nümayişləri və digər müxtəlif tədbirlərin təşkili də nəzərdə tutulur. Bakı şəhərində yerləşən istənilən mağaza, restoran və kafe Bakı Ticarət Festivalının iştirakçısı ola bilər.

Dövlət başçısının 1 sentyabr 2016-cı il tarixli, "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamına əsasən keçirilən festivalın təşkili Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Konqreslər Bürosuna həvalə edilib. Bakı Şopinq Festivalının təşkil olunması "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə də öz əksini tapıb.

*Səbinə MƏMMƏDOVA,*
*"Azərbaycan"*

# Konqres iştirakçılarının şərəfinə qala gecə təşkil olunub

Dövlət Sərhəd Xidmətinin hərbi hospitalının təşkilatçılığı ilə Bakı şəhərində keçirilən Ambruaz Pare adına Beynəlxalq Hərbi Cərrahlar Cəmiyyətinin 1-ci Konqresi işini davam etdirir.

21 ölkədən 156 nümayəndənin iştirak etdiyi konqres çərçivəsində dünya səviyyəsində tanınmış cərrahların hərbi cərrahiyyə sahəsində yeni innovativ yanaşmalar haqqında çıxışları dinlənilmiş, qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi məqsədilə geniş fikir mübadiləsi aparılmışdır.

"Elite Events Hall" zalında konqres iştirakçılarının şərəfinə qala gecə də təşkil olunmuşdur.

Gecədə Dövlət Sərhəd Xidmətinin nümunəvi hərbi orkestrinin baş dirijoru mayor Səməd Vəkilovun, rəqs ansamblının bədii rəhbəri, Azərbaycan Respublikasının əməkdar artisti Nailə Məmmədzadənin rəhbərlik etdikləri yaradıcı kollektivlərin çıxışları böyük maraqla qarşılanmışdır.

Rəqs ansamblının ifasında milli və xarici ölkələrin rəqsləri, DSX nümunəvi hərbi orkestrinin solistləri Tural Ağasıyevin və Fəxri Kazım Nicatın, Azərbaycan Respublikasının əməkdar artisti Afaq Abbasovanın, tanınmış estrada müğənnisi Dilarə Kazımovanın ifasında Azərbaycan və əcnəbi bəstəkarların əsərləri konsertə rəngarənglik qatmışdır.

*"Azərbaycan"*

# Almatıda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə və ümummilli lider Heydər Əliyevin 95 illiyinə həsr olunmuş konfrans keçirilib

## Tədbir çərçivəsində Qazaxıstan Milli Universitetində Azərbaycan Tarix və Mədəniyyət Mərkəzi açılıb, dahi dramaturq Hüseyn Cavidin 135 illiyinə həsr olunmuş xüsusi konfrans təşkil edilib

Mayın 17-də Almatı şəhərindəki Əl-Fərabi adına Qazaxıstan Milli Universitetində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə və ümummilli lider Heydər Əliyevin 95 illiyinə həsr olunmuş konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Əl-Fərabi adına Qazaxıstan Milli Universitetinin rektoru **Qalimkair Mutanov** konfransı açaraq Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin və ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinin universitetdə təşkil edilməsinin əhəmiyyətindən danışıb. Rektor vurğulayıb ki, Azərbaycan Xalq Cümhuriyyəti türk-müsəlman dünyasında ilk demokratik respublika idi. Onun yaratdığı dəyərlər təkcə Azərbaycan üçün deyil, bütün türk dünyası üçün mühüm əhəmiyyət kəsb edir. Bu dövlətin yaratdığı seçki, dövlət idarəçiliyi ənənələri, elm, təhsil, mədəniyyət və digər sahələrdə gördüyü işlər sonrakı dövrlərdə bütün türk cümhuriyyətlərində istifadə olunmuş dəyərlər kimi bizim üçün də qiymətlidir.

Azərbaycanın Qazaxıstandakı səfiri **Rəşad Məmmədov** konfransda geniş məruzə ilə çıxış edib.

Səfir deyib ki, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da, tariximizdə şanlı və şərəfli yer tutur. Bu gün Azərbaycan dövləti həmin tarixlə qürur duyur. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev indiki müstəqil dövlətimizin Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bəyan edib. Cümhuriyyətin qısa müddətdə həyata keçirdiyi tədbirlər və qəbul etdiyi qərarlar, atdığı addımlar tariximizdə silinməz iz buraxıb, milli dövlətçilik ənənələrinin bərpası işində böyük rol oynayıb. Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik ideyalarını daha da gücləndirib.

Diplomat diqqətə çatdırıb ki, bu günlərdə 95 illik yubileyini qeyd etdiyimiz ulu öndər Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə qayıtdıqdan sonra müstəqilliyimizin davamlı və əbədi olması yolunda qətiyyətli addımlar atdı və bu sahədə qarşıya çıxan çətinlikləri aradan qaldırdı. Müstəqillik illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkədə çox uğurlu xarici siyasət aparıldı, dünyanın inkişaf etmiş bütün dövlətləri ilə diplomatik əlaqələr yaradıldı və əməkdaşlıq haqqında ölkəmizin maraqlarına xidmət edən ikitərəfli sazişlər bağlandı. Bu gün Heydər Əliyev siyasi kursunun layiqincə davam etdirilməsi, Prezident İlham Əliyevin düşünülmüş strategiyası müstəqil Azərbaycanı dünyanın inkişaf etmiş demokratik dövlətlərindən birinə, beynəlxalq aləmdə söz və nüfuz sahibinə çevirib.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi **Əli Həsənov** çıxış edərək konfransın təşkilatçılarına - Əl-Fərabi adına Milli Universitetin rəhbərliyinə, TÜRKSOY-a, Beynəlxalq Türk Akademiyasına və tədbirdə iştirak edən Qazaxıstan rəsmilərinə təşəkkürünü bildirib. Prezidentin köməkçisi deyib ki, bu cür tədbirlər xalqlarımız, dövlətlərimiz arasındakı dostluq və qardaşlıq münasibətlərinin göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ölkələrimiz arasında əlaqələrin inkişafına böyük önəm verirlər. Bu gün Azərbaycan ilə Qazaxıstan bir çox sahələrdə sıx əməkdaşlıq edir, beynəlxalq qurumlarda bir-birini dəstəkləyirlər. Əminik ki, bu əlaqələr xalqlarımızın mənafeyi naminə daim inkişaf edəcək.











Beynəlxalq Türk Akademiyasının prezidenti **Darxan Kıdırəli** bildirib ki, ötən yüzilliyin əvvəllərində bütün türk dünyasında özünü göstərən milli azadlıq hərəkatı müxtəlif coğrafiyalarda yayılsa da, Azərbaycanda xüsusilə geniş vüsət aldı. Bu il qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi bütün müsəlman Şərqində ulduz kimi doğdu. Cümhuriyyət təkcə Azərbaycanda deyil, bütün türk dünyasında milli düşüncənin oyanması və formalaşmasında vacib rol oynadı. Xarici ölkələrdə diplomatik nümayəndəliklər açıldı.

Darxan Kıdırəli qeyd edib ki, Beynəlxalq Türk Akademiyası bu tarixi hadisənin önəmini, Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin yüzillik yubileyinin yüksək səviyyədə keçirilməsi üçün imzaladığı sərəncamı nəzərə alaraq geniş tədbirlər proqramı hazırlayıb. Biz artıq beynəlxalq səviyyədə ilk tədbirimizi reallaşdırmışıq. Aprel ayında Parisdə UNESCO-nun baş qərargahında keçirdiyimiz beynəlxalq forum çərçivəsində Cümhuriyyətin 100 illik yubileyini və onun qurucularından olan Əlimərdan bəy Topçubaşovun 155 illiyini qeyd etdik. Cari ilin iyun ayında Astanada təşkil edəcəyimiz IV Böyük Beynəlxalq Humanitar Forumun bir panelini bütünlüklə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edəcəyik. Bununla yanaşı, ilk dəfə olaraq qazax dilində Cümhuriyyətə aid ensiklopedik xarakterli sənədlər və faktlarla zəngin olan nəfis tərtibatda kitab çapa hazırlanıb.

Qazaxıstan Xalqları Assambleyasının üzvü, Qazaxıstan Azərbaycanlıları Assosiasiyasının sədri **Əbülfəz Xamedov** deyib ki, Azərbaycanla Qazaxıstanı etnik-tarixi köklərdən başqa, son onilliklərin siyasi münasibətlər sistemini müəyyənləşdirən əhəmiyyətli amillər də yaxınlaşdırır. Qazaxıstan-Azərbaycan əlaqələrinin inkişafında və Qazaxıstanın ictimai-siyasi, iqtisadi, mədəni, sosial həyatında azərbaycanlıların mühüm rolu var. Dost və qardaş Qazaxıstanda məskunlaşan 300 mindən çox soydaşımız daim tarixi Vətənimiz olan Azərbaycanda gedən inkişaf proseslərini sevinclə izləyir və iki ölkə arasında münasibətlərin tərəqqisinə töhfələrini verirlər.

Əl-Fərabi adına Qazaxıstan Milli Universitetinin professoru **Saypulla Sapanov** bildirib ki, Azərbaycan və Qazaxıstan xalqlarını daha da yaxından tanımağımız üçün ortaq keçmişdən süzülüb gələn dəyərlərimizi yenidən dərk etməli və onlara sahib çıxmalıyıq. Bu cür tədbirlərin, birgə elmi layihələrin reallaşdırılmasının əhəmiyyəti böyükdür.

Saypulla Sapanov deyib ki, ulu öndər Heydər Əliyevin müasir müstəqil Azərbaycan dövlətinin qurulmasında xidmətlərini saymaqla bitməz. Məhz Heydər Əliyev və Nursultan Nazarbayev tərəfindən əsası qoyulan sıx dostluq münasibətləri bu gün uğurla davam edir.

Tədbirdə ümummilli lider Heydər Əliyev haqqında film nümayiş olunub.

* * *

Sonra Əl-Fərabi adına Qazaxıstan Milli Universitetində Azərbaycan Tarix və Mədəniyyət Mərkəzinin açılışı olub.

Mərkəzdə Azərbaycana aid çoxsaylı siyasi, elmi, mədəni ədəbiyyat toplanıb. Azərbaycanın mədəniyyətini, siyasətini, tarixini əks etdirən tablolar asılıb. Tabloların hər birində xronoloji məlumatlar yer alıb. Diqqətə çatdırılıb ki, bu mərkəzdə alimlər, müəllimlər, tələbələr tədqiqatlar aparacaq, Azərbaycanın ali məktəbləri, o cümlədən elm-təhsil ictimaiyyəti ilə əlaqələr quracaqlar.

Əl-Fərabi adına Qazaxıstan Milli Universitetinin rektoru **Qalimkair Mutanov** açılış mərasimində çıxış edərək bu mərkəzin Azərbaycan-Qazaxıstan elmi, ictimai, siyasi, sosial əlaqələri üçün əhəmiyyətindən danışıb.

Azərbaycan Prezidentinin köməkçisi **Əli Həsənov** mərkəzin açılışına verdiyi dəstəyə görə universitetin rəhbərliyinə təşəkkür edib. Diqqətə çatdırıb ki, bu mərkəz gələcəkdə ölkələrimiz arasında elm, təhsil, mədəniyyət sahələrində əlaqələndirici bir vəsilə olacaq. Əli Həsənov bu mərkəzin xalqlarımızın bir-birini daha yaxşı tanımalarına, elmi biliklərin mübadiləsinə müsbət təsir göstərəcəyini vurğulayıb.

Azərbaycanın Qazaxıstandakı səfiri **Rəşad Məmmədov** mərkəzin yaradılması ilə bağlı görülən işlərdən danışıb.

* * *

Daha sonra Əl-Fərabi adına Universitetin böyük akt zalında Azərbaycanın dahi dramaturqu Hüseyn Cavidin 135 illiyinə həsr olunmuş xüsusi konfrans keçirilib.

Universitetin rektoru **Qalimkair Mutanov,** Azərbaycan Prezidentinin köməkçisi **Əli Həsənov,** TÜRKSOY-un baş katibi **Düsen Kaseinov,** Azərbaycanın Qazaxıstandakı səfiri **Rəşad Məmmədov,** Beynəlxalq Türk Akademiyasının prezidenti **Darxan Kıdırəli** konfransda salamlama nitqləri söyləyiblər.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi **Kamran Əliyev** görkəmli dramaturqun həyat və yaradıcılığından söhbət açaraq qeyd edib ki, Hüseyn Cavid böyük ədəbi xidmətləri olan, öz məktəbini yaradan sənətkar, romantizm ədəbi cərəyanının banisidir. Alim Hüseyn Cavidin indiyədək araşdırılmamış və nəşr edilməmiş qeyd dəftərləri, əlyazmaları əsasında onun fikirlərini şeirə çevirməsi texnologiyasından söz açıb.

Azərbaycan Milli Elmlər Akademiyasının doktorantı **Sona Vəliyeva** bildirib ki, Hüseyn Cavid məfkurəsi əbədidir. Çünki o, millətin dilini, mənəviyyatını, məxsus olduğu bütün dəyərləri birləşdirərək türkçülük məfkurəsini bütün əsərlərində tərənnüm edib. Hüseyn Cavid bilirdi ki, türk dünyasının xilası, onun tarixdə duruşu və millətin millət kimi bütün təhlükələrdən qurtuluşu türkçülük məfkurəsinin olmasındadır. Hüseyn Cavidin dünyəvi məktəbdə təhsil alması və həyatında baş verən digər hadisələr ulu Tanrının yazısı idi. Onun dini təhsil alması da irfan mədəniyyətinin formalaşması üçün lazım idi. Cavid o dövrdə hürufi ocağı, hər qarış torpağında övliya məzarı olan Naxçıvanda dünyaya gəlməli, buranın insanları ilə ünsiyyətdə olmalı idi. Atasının minbir əziyyətlə dilə tutub yazdırdığı molla məktəbindən qaçmalı, Məhəmməd Tağı Sidqinin məktəbinə gəlməli, dünyəvi elmlərlə tanış olmalı idi. O, öz yaradıcılığını iki böyük məfkurənin qovuşduğu bünövrə üzərində qurmalı idi. Buna görə də o, Azərbaycan, ardınca Təbriz, daha sonra isə Türkiyə mühitini görüb təhsil almalı idi. Hüseyn Cavidin taleyinə türk dünyasının ən böyük filosoflarından dərs almaq yazılmışdı. O, məfkurənin nədən başlandığını və digər prinsipləri öyrənməli, bunları öz əsərlərində təcəssüm etdirməli idi. Məhz buna görə də 1937-ci ilin sərt, amansız repressiya küləyi ondan da yan keçməyib, Sibirə sürgün olunub və 1941-ci ilin şaxtalı qış ayında İrkutskda həyatla vidalaşıb.

Ümummilli lider Heydər Əliyevin görkəmli ədibin nəşinin Azərbaycana gətirilməsi istiqamətində fəaliyyətindən söz açan Sona Vəliyeva qeyd edib ki, ulu öndər dahi Cavidin yaradıcılığını yüksək qiymətləndirirdi.

"Ədəbiyyat" qəzetinin baş redaktoru, cavidşünas alim **Azər Turan** çıxış edərək bildirib ki, bu gün biz Qazaxıstanda Azərbaycan Cümhuriyyətinin 100 illiyini qeyd etdik. Bu gün biz ulu öndər Heydər Əliyevin 95 illik yubileyindən danışdıq, qazax şairi Əhməd Baytursunun dostu Hüseyn Cavidi andıq. 1926-cı ildə Əhməd Baytursun Hüseyn Cavidin evində qonaq olub. Biz bilirik ki, füyuzat estetikası müasirləşmək, islamlaşmaq, türkləşmək deməkdir. Məhz Hüseyn Cavidin yaradıcılığı da həmin türkləşmək, islamlaşmaq, müasirləşmək triadasının əsasında hasilə gəlib. Bugünkü mövzular o qədər müqəddəsdir ki, hər birimizin qəlbində bu mövzuların işıqları yanır. Bu gün Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi, ulu öndər Heydər Əliyevin 95 illiyi və dramaturq Hüseyn Cavidin 135 illiyi bir ocaq, bir vətən deməkdir.

Konfransda məruzələr dinlənilib və müzakirələr aparılıb.

Tədbirin sonunda Azərbaycan icmasının rəhbəri Əbülfəz Xamedov Prezidentin köməkçisi Əli Həsənova "Abay" xatirə medalını təqdim edib.

Tədbirlərdə Milli Məclisin deputatı, Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Adil Əliyev, işçi qrupun üzvü, deputat, Azərbaycanda Atatürk Mərkəzinin direktoru Nizami Cəfərov da iştirak ediblər.

# Azərbaycan ilə Qazaxıstan arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Qazaxıstanın Almatı şəhər akimi (qubernatoru) Baurjan Baybek ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üçün geniş potensialın olduğu bildirilib.

Prezidentin köməkçisi deyib ki, müstəqillik illərində Qazaxıstan mühüm nailiyyətlər əldə edərək regionun aparıcı dövlətlərindən birinə çevrilib. Azərbaycanın siyasi sahədə sabit diplomatik münasibətlərinin mövcud olduğu ölkələrdən biri məhz Qazaxıstandır. Azərbaycan-Qazaxıstan əlaqələrinin genişlənməsinə əlverişli şərait yaradan üstünlüklər, eyni zamanda, düşünülmüş siyasət regionun inkişafına təkan verən bir sıra layihələrin reallaşdırılmasını şərtləndirib.

Almatı şəhər akimi Baurjan Baybek Azərbaycana səfəri zamanı müşahidə etdiyi inkişaf haqqında xoş təəssüratlarını bölüşüb. O, ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli formatda əməkdaşlığın müxtəlif sahələrinə toxunub, münasibətlərin strateji xarakter daşıdığını qeyd edib.

Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin getdikcə möhkəmləndiyi vurğulanıb, ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov görüşdə iştirak edib.



# Naxçıvan inkişafa görə yenə də liderdir

## Prezidentin qayğısı muxtar respublikanın hərtərəfli yüksəlişinin əsas zəminidir





*Əvvəli 1-ci səh.*

### Müasir raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər

Dövlət başçısı Azərbaycan Silahlı Qüvvələrinin bugünkü gücü və ordumuzun malik olduğu müasir hərbi texnikalar barədə də məlumat verdi. Eyni zamanda qeyd etdi ki, son illərdə Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Naxçıvan Ordusu ən müasir silahlar, texnika ilə təchiz edilib.

Alınan müasir texnikanın demək olar ki, bütün növləri, yaxud da ki, əksər növləri Naxçıvana göndərilir: “Bu gün Naxçıvan Ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər, eyni zamanda uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir”.











### Tezliklə Naxçıvanda elə bir hadisə yaşanacaq ki...

Prezident həmçinin bildirdi ki, bu gün elektrik enerjisi ilə bağlı bütün problemləri həll olunan Naxçıvanda son illər 8 elektrik stansiyası tikilib. Hazırda tikilməkdə olan 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyası işə düşəndən sonra muxtar respublika öz enerji tələbatının 100 faizini bərpa olunan enerji hesabına təmin edəcək.

Bu, dünya miqyasında bəlkə də yeganə belə bir hal olacaq: “Bu gün Naxçıvan elektrik enerjisini ixrac edə bilər. Şadam ki, o cümlədən günəş elektrik stansiyası tikilib, su elektrik stansiyaları tikilir və Naxçıvanın artan sənaye potensialını təmin edəcək güclü elektrik təsərrüfatı yaradılır. Naxçıvanın əhalisi artır, sənaye istehsalı bundan sonra da artacaq. Ona görə bu məsələyə biz daim diqqət göstərməliyik”.

### Bütün yeni infrastruktur Naxçıvanın güclü potensialını təmin edir

Prezident bildirdi ki, Naxçıvanın qazlaşdırılması ilə bağlı məsələlər öz həllini tapıb, qazlaşdırma 100 faiz təmin edilib, içməli su layihələri uğurla icra edilir və yeni avtomobil yolları salınır. Əlbəttə ki, bütün bunlar Naxçıvanın uğurla, sürətlə inkişaf etməsinə real zəmin yaradır. Dövlət başçısının söylədiyi kimi, yeni bütün bu infrastruktur artıq Naxçıvanın güclü potensialını təmin edir.

Bununla yanaşı, iqtisadiyyatın real sektorunun inkişafına da böyük diqqət göstərilir. Sənaye müəssisələri yaradılır, ixrac imkanları artır, kənd təsərrüfatı uğurla inkişaf edir. Naxçıvan özünü taxılla təmin edir. Qəbul edilmiş son qərarlar kənd təsərrüfatının inkişafına daha da böyük təkan verəcək.

### “Şimal-Cənub” nəqliyyat dəhlizi Naxçıvanı blokadadan çıxaracaq

Azərbaycanın hazırda “Şimal-Cənub” nəqliyyat dəhlizinin yaradılması ilə ciddi məşğul olduğunu da diqqətə çatdıran İlham Əliyev bildirdi ki, ölkə ərazisində bu layihə ilə bağlı bütün işlər görülüb. Gələcək üç il ərzində layihənin tam istifadəyə verilməsi gözlənilir: “Planımız bundan ibarətdir. Belə olan halda Naxçıvan dəmir yolu ilə Azərbaycanın əsas hissəsi ilə birləşəcək və beləliklə, blokadadan, mühasirədən canını qurtaracaqdır”.

Yəni bu mühüm işlərin görülməsi Naxçıvanın çox böyük potensialının olduğunu bir daha təsdiqləyir. Həqiqətən də dövlət başçısının qayğısı ilə burada görülən işlər yüksək qiymətə layiqdir.

### 55 milyon manatlıq yeni dövlət dəstəyi

Dövlət başçısı Naxçıvana səfəri çərçivəsində 4 yeni obyektin açılışında iştirak etdi. Eyni zamanda Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsindəki sərhəd dəstəsində və Əlahiddə Ümumqoşun Ordusunun “N” saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub.

Səfərdən sonra Prezident Naxçıvan Muxtar Respublikası ərazisində meliorativ tədbirlərin həyata keçirilməsi (5 milyon manat), sosial-iqtisadi inkişafın sürətləndirilməsi (10 milyon manat), Ordubad Su Elektrik Stansiyasının (10 milyon manat) və Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi (30 milyon manat) ilə bağlı əlavə tədbirlərin davam etdirilməsi üçün 4 sərəncam imzalayıb. Bu sərəncamlarda nəzərdə tutulan işlərin yerinə yetirilməsi üçün ümumilikdə 55 milyon manat vəsait ayrılıb.

**_Rəşad BAXŞƏLİYEV,_**
**_“Azərbaycan”_**

---

## Bakıda “Real Madrid Fondu Azərbaycan” sosial futbol məktəbinin açılışı olub

Mayın 17-də Olimpiya növləri üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzində “Real Madrid Fondu Azərbaycan” sosial futbol məktəbinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, mərasimdə gənclər və idman naziri Azad Rəhimov, AFFA-nın vitse-prezidenti Rauf Əliyev, Real Madrid Fondunun nümayəndələri - “Real Madrid” futbol klubunun elçisi Rikardo Qalleqo və fondun Avropa regionu üzrə baş meneceri xanım Elena Fernandez iştirak ediblər.



Gənclər və idman naziri Azad Rəhimov Azərbaycanda futbolun inkişafının daim dəstəkləndiyini, idmanın bu növünün inkişafına dair dövlət proqramının uğurla icra edildiyini vurğulayıb. Bu məktəbin açılışının Azərbaycanda uşaq futbolunun inkişafında əhəmiyyətini xüsusi qeyd edən nazir deyib: “Real Madrid” futbol klubu dünyada öz uğurları və təcrübəsi ilə seçilir. Belə bir klubun məktəbində futbol dərsləri almaq hər bir uşağın inkişafı və gələcək karyerası üçün uğurlu addımdır”.

“Real Madrid” futbol klubunun elçisi Rikardo Qalleqo çıxışında beş illik səmərəli əməkdaşlıqdan məmnunluq duyduğunu vurğulayaraq deyib: “Gənclər və İdman Nazirliyi, “İnkişaf Naminə İdman” İctimai Birliyi və Real Madrid Fondu bir komandadır. Bu sosial komanda Azərbaycanda uşaqların gələcəyini formalaşdırmaq üçün çalışır. Biz dünyanı daha yaxşı məkana çevirəcək, hörmət, motivasiya, çalışqanlıq, bərabərlik, sağlamlıq, əməkdaşlıq, məsuliyyət və həmrəyliyə əsaslanan çempionluğumuzu qazanmalıyıq”.

Azərbaycan Gənclər və İdman Nazirliyinin və Real Madrid Fondunun birgə layihəsi olan sosial futbol məktəbi 2013-cü ildən fəaliyyət göstərir. 2013-cü ildə imzalanmış əməkdaşlıq müqaviləsinə uyğun olaraq, yaradılan məktəb Real Madrid Fondunun MDB məkanında birinci, Avropada səkkizinci layihəsi olub. 2013-2017-ci il tədris müddətini əhatə edən ilk mərhələdə görülən işlərin uğurlu olması ilə əlaqədar tərəflər əməkdaşlığı davam etdirmək qərarına gəliblər.

Bu ilin yanvarında yeni müqavilə imzalanıb. Beləliklə, “Real Madrid Fondu Azərbaycan” sosial futbol məktəbi növbəti dörd il ərzində ölkədə futbolun inkişafına və kütləviliyinə dəstək verməkdə davam edəcək.

Layihənin əsas tərəfdaşları Gənclər və İdman Nazirliyi ilə Real Madrid Fondudur. Əsas icraedici tərəfdaş isə “İnkişaf Naminə İdman” İctimai Birliyidir.

Məktəbdə dörd yaş qrupu üzrə komandalarda 80 uşaq məşqlərə cəlb olunur. Məşqlər həftədə iki dəfə - cümə axşamı və şənbə günləri olmaqla 267 saylı məktəbin və “Pioner” futbol məktəbinin meydançalarında keçirilir. Məşqlər ödənişsizdir.

## Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Samuxda vətəndaşları qəbul edib

Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov Samux rayonunda Gəncə, Mingəçevir, Naftalan şəhərlərindən və Samux, Goranboy, Göygöl və Daşkəsən rayonlarından olan sakinləri qəbul edib.

AZƏRTAC xəbər verir ki, qəbulda 50-yə yaxın vətəndaş iştirak edib. Vətəndaşların müraciətləri daha çox xidmətin aidiyyəti şöbə və bölmələrində işə və ya həqiqi hərbi xidmətə qəbul, övladlarının gələcək xidmət yerinin müəyyənləşdirilməsi, eləcə də veteran adının və vəsiqəsinin verilməsinə dair olub.

Qəbul zamanı irəli sürülən bəzi məsələlər yerindəcə həllini tapıb, qanunvericiliyin tələbləri vətəndaşlara izah edilib. Araşdırılması tələb olunan müraciətlər nəzarətə götürülüb.

## Arkanzas ştatının paytaxtında 28 May Azərbaycan Milli Günü elan olunub

**Arkanzas ştatının paytaxtı Litl-Rok şəhərinin meri Mark Stodola Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü ilə əlaqədar rəsmi bəyannamə imzalayıb.**




AZƏRTAC xəbər verir ki, bəyannamədə 1918-ci il 28 may tarixində müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi və dünyanın digər demokratik dövlətləri, o cümlədən ABŞ tərəfindən tanındığı qeyd olunur. Sənəddə bildirilir ki, Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində irqi, cinsi, etnik və ya dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər seçki hüququnu tanımaqla yanaşı, müsəlman dünyasında ilk dəfə olaraq qadınlara seçki hüququnun verilməsini təmin edib.

Eyni zamanda sənəddə Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ildə öz müstəqilliyi uğrunda mübarizə aparmasına rəğmən onun Sovet İttifaqının tərkibinə daxil edildiyi və 1991-ci ildə yenidən öz müstəqilliyini bərpa etməyə nail olduğu vurğulanır.

Qeyd edilir ki, Azərbaycan son 25 ildə suverenliyini və müstəqilliyini möhkəmləndirib və hazırda Xəzər regionunda ABŞ-ın müttəfiqi və strateji tərəfdaşıdır.

Bəyannamədə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyində dünyada yaşayan milyonlarla və ABŞ-da on minlərlə azərbaycanlı tərəfindən 28 may tarixinin milli bayram kimi qeyd edildiyi bildirilir, hər bir azərbaycanlının öz əcdadlarının Qafqaz, Mərkəzi Asiya və Orta Şərqdə demokratiyanın yayılması üçün verdiyi töhfələri xatırladıqları vurğulanır.

Sonda şəhərin meri Mark Stodola imzaladığı bəyannamədə 2018-ci il 28 may tarixini Litl-Rok şəhərində Azərbaycan Milli Günü elan edib.

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 90 dəfə pozub

**Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 90 dəfə pozub.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Kəngərli, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Bilik Fondu Rabindranat Taqorun yaradıcılığı ilə bağlı tədbir keçirib

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təşkilatçılığı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) böyük hind ədibi, Nobel mükafatçısı Rabindranat Taqorun həyat və yaradıcılığına həsr olunan tədbir keçirilib.

ADPU-nun rektoru, tarix elmləri doktoru, professor Cəfər Cəfərov dünya şöhrətli sənət adamlarının yaradıcılıqlarının təbliği və təşviqi istiqamətində görülən işlərin gənclərin dünyagörüşünün formalaşmasına müsbət təsir göstərdiyini bildirib.

Bilik Fondunun aparat rəhbəri, professor İsaxan Vəliyev təmsil etdiyi qurumun “Dünya elmi Azərbaycanda” layihəsi çərçivəsində həyata keçirdiyi maarifləndirici tədbirlərdən söz açıb.




Mütəfəkkirlərin Taqorun yaradıcılığı haqqında maraqlı fikirlər söylədiklərini, iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Amartiya Senin hindli yazıçının şəxsiyyətinə və yaradıcılığına verdiyi qiyməti diqqətə çatdırıb.

R.Taqorun şair, dramaturq, rəssam, bəstəkar, filosof kimi fəaliyyətini əks etdirən filmin nümayişindən sonra Hindistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sanjay Rana çıxış edib.

Səfir Azərbaycanda Hindistan mədəniyyətinə böyük marağın olduğunu, hindlilərin də Azərbaycana məhəbbət bəslədiklərini vurğulayıb. S.Rana qeyd edib ki, Hindistanla Azərbaycan arasında bütün sahələrdə, xüsusən elmi müstəvidə qurulan əlaqələrin daha da genişlənməsi məqsədilə səfirlik Bilik Fondu ilə əməkdaşlığa həmişə hazırdır.

Bilik Fondunun lektorlar qrupunun üzvü, Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri, filologiya elmlər doktoru, professor Bədirxan Əhmədov şairin filosof səviyyəsində yazdıqlarının oxucularda heyrətamiz hisslər yaratdığını bildirib. Həyatını hind xalqının azadlığı uğrunda mübarizəyə həsr edən Taqorun on ikidən çox roman və povestin, otuzadək dram əsərinin, yüzlərlə poetik və mənsur şeirin müəllifi olduğunu, hind və benqal ədəbiyyatına yeni ruh gətirdiyini deyib.

Professor onu da bildirib ki, R.Taqor Nobel mükafatına layiq görülən ilk asiyalı yazıçıdır. 1923-cü ildən başlayaraq onun əsərləri dilimizə tərcümə edilir, haqqında məqalələr yazılır.

Sonda Azərbaycan Dillər Universitetinin Hind dili və mədəniyyəti mərkəzinin kollektivinin ifasında R.Taqorun şeirləri və mahnılar səsləndirilib.

**_“Azərbaycan”_**



# Azərbaycan Parlamenti - 100



**Azərbaycan dövlət müstəqilliyi qazandığı 1918-1920-ci illərdə qurulmuş Xalq Cümhuriyyəti Parlamentində aparılan müzakirələr ideya-məzmunu ilə yanaşı, nitq mədəniyyəti baxımından da böyük maraq doğurur. Xüsusilə ona görə ki, Azərbaycan türkcəsi uzun əsrlərdən sonra ilk dəfə olaraq xalqın (və ölkənin) iqtisadi, ictimai-siyasi və mədəni taleyinin müzakirə edildiyi ali dövlət təşkilatına - Cümhuriyyət Məclisi-Məbusanına hakim olur...**





## MİLLİ PARLAMENTDƏ MİLLİ DİL TƏƏSSÜBKEŞLİYİ

Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndən az sonra türk (Azərbaycan) dilinin dövlət dili olması haqqında qərar qəbul etdi. Və bu qərarın de-fakto olaraq necə həyata keçməsi prosesini göstərən ən mötəbər (və ali!) mənbə Azərbaycan Məclisi-Məbusanının iclasıdır.

İclaslardakı çıxışların mütləq əksəriyyəti dövlət dilində olsa da, müəyyən qismi rusca edilmişdir; hərdənbir "Rusca! Rusca!" qışqıranların səsi gəlsə də, aparıcı tendensiya "türkcə"nin müdafiəsində inamla dayanmış və ümumiyyətlə, Azərbaycan Məclisi-Məbusanı Azərbaycan dilini yalnız de-yure deyil, de-fakto da dövlət dili səviyyəsinə yüksəldə bilmişdir.

Ancaq bu o qədər də asan olmamışdır...

1918-ci ilin 16 noyabrında Azərbaycan Cümhuriyyəti Parlamentinin təsis iclasını açarkən Milli Şura sədri M.Ə.Rəsulzadə, tamamilə təbiidir ki, tarixə bir nəzər salaraq demişdir: "Azərbaycanlılar, necə ki hamınıza məlumdur, heç vəqt hürriyyət və istiqlaliyyət fikrindən ayrılmayaraq daima bu uğurda çalışmış, mübarizə eləmişlərdir, Rusiya çarizmi dövründə onların fəaliyyəti yalnız milli ədəbiyyat, milli məktəb, milli mədəniyyət mübarizəsində təzahür etmişdir. Çarizmin süqutu ilə bütün millətlər əl-ələ verib müqəddərati-milliyyələrinin həlli, hüquq və istiqlaliyyətləri yolunda çalışırdılar".

Parlamentin 7 dekabr 1918-ci il tarixli iclası barədəki "Təəssürat"ından isə Üzeyir Hacıbəyli yazır: "Padşahlı məmləkətlərdə məclisi-məbusanı padşah açar, amma Azərbaycan Cümhuriyyətinin Məclisi-Məbusanını bir nəfər vətən övladı açdı".

Və Üzeyir bəy həmin "vətən övladı"nın - M.Ə.Rəsulzadənin nitqinin mükəmməlliyindən bəhs edəndən sonra baş nazirə keçir:

"Növbət ministrlər rəisi Fətəli xan Xoyskiyə yetişdi.

Xudavəndi-aləm hər yerdə istibdad varsa, evini yıxsın, necə ki rus istibdadının evini yıxdı. Qoyurdularmı ki, vaxtında dilimizi öyrənək ki, yeri düşəndə danışarkən fikrimizi söyləməyə söz axtarmağa möhtac qalmayaq!

Bavücudin Fətəli xan çox da duruxa-duruxa danışmırdı, dilinə hətta rəvan demək də caizdir. Anasından öyrənmiş dilinə bir qədər də türk qəzetləri mütaliəsindən və bir də Osmanlı türk arkadaşlarımız ilə bir müddət təmasda bulunub deyunub deyib-danışmağ məcburiyyətindən hasil olan sözləri qatıb, bir dil düzəltmişdi ki, onunla ifadeyi-məram edirdi.

Fətəli xan zatən nitq söyləmirdi. O, məbuslar əfəndilərlə dərdləşmək istiyordu, dərdini söyləyib şikayət edirdi".

Və bu nitqdən bir parça:

"Ən böyük zəlalətimiz bu idi ki, o vəqt hökumət göydən asılı kibi idi. Zira hürriyyət, ədalət, üxüvvət bayrağı daşıyanlar Bakıyı əlimizdən almış, bizi paytaxtsız qoymuşdular. Azərbaycanın kökünü təşkil edən, məmləkətin həqiqi sahibi olan müsəlmanlar qətliam edilərək Dağıstan, İran və Turana dağılmışlardı. Şəhərdə bir iş görəcək adamımız qalmamışdı... Şükürlər olsun ki, artıq məqsədlərimizin bir çoxuna çatdıq: Bakı əlimizə keçdi..."

Fətəli xan Xoyski Məclisin 26 dekabr 1918-ci il tarixli 5-ci iclasındakı hesabatında demişdir: "Məarif nəzarəti hər kəsə imkan verməlidir ki, öz ana dilində oxusun. Böylə imkan verilməmək bəlasındandır ki, bu gün bən sizinlə istədiyim kibi danışa bilmiyorum. Bizdə böylə olmamalıdır".

Azərbaycan Cümhuriyyətinin dil məsələsində tutduğu demokratik yol bu sahədə müəyyən problemlər də yaratmışdır. Belə ki, bəzi millət vəkilləri rusca danışmağa üstünlük vermişlər ki, bu barədə Ü.Hacıbəyli öz "Təəssüf"lərindən birində yazır: "Raboçi klubda rus fəhlələri müsəlman natiqlərindən rusca danışmağı tələb edirmişlər. Parlamanda dəxi hərdən bunu tələb edənlər olmayır deyil, fəqət tələb edənlər ruslar degildir.

"Rusca, rusca!" - deyə hərdəm yerlərindən əmr verən məbus əfəndilərimizi mən başa düşürəm: istəyirlər ki, qeyri-müsəlman məbusanlarımız haqqində əvvəla adi "nəzakət" rəsmiyyəti icra edilsin və saniyən danışılan məsələlərdən, təklif olunan qərarlardan onlar da müxbir olub işdə iştirak etsinlər.

Buna heç bir sözümüz yox! Hələlik bu dilə möhtacıq və istimalına da məcburuq. Lakin rusca danışılmasın, rusca ancaq tərcümə edilsin"...

Ü.Hacıbəyli Məclisdə "adi söhbətlər" məsələsinə də toxunaraq göstərir ki, "məbuslar ilə rəis əfəndi arasında və ya məbuslarımızın öz aralarında təati edilən sözləri rusca söğləməyə heç bir ehtiyac yoxdur.

- Pozvolte mne dva slova!
- Vı o çem?
- Y na sçet zayavleniye çlena!..

Bunun kimi mükaliməyyi parlamanda rusca keçirtməgə nə hacət? Bir halda ki danışan da türkdür, danışdırılan da..."

Üzeyir bəy Məclis üzvü Səfikürdskinin "zapros" əvəzinə "sorğu" sözünü işlətməsini də təqdir etmiş və tamamilə doğru olaraq əlavə eləmişdir ki, "zatən bu sözü Səfikürdski cənabları özündən çıxarmayıbdır. Dilimizin mənbəi-sərvəti olan... kəndlərimizdə... "sorğu-sual" sözü vardır.

...Zənn edirəm, bu "sorğu" sözünü "zapros" yerinə Səfikürdski ilə bərabər hamımız dəxi işlətsək, uduzmarıq ki, udarıq. Türkiyə Məclisi-Məbusanında "zapros" sözünə "təqrir" denildiyi qəzetlərdən anlaşılmaqdadır".

Ümumiyyətlə, müşahidələr göstərir ki, Cümhuriyyət Parlamentində hüquq terminlərinin milliləşdirilməsi meyli güclü olmasa da, hər halda yox deyildi.

Məsələn, 17 mart 1919-cu il tarixli iclasda Məclisi-Məbusan Nizamnaməsi qəbul edilərkən M.Ə.Rəsulzadə deyir:

"Nizamnaməni qəbul etdiniz. Lakin türkcə istilahının təshihata ehtiyacı vardır. Ona görə təklif edərdim ki, nizamnamə təshih üçün Təshih komisyonuna verilsin".

Parlamentin 25 fevral 1919-cu il tarixli iclasında "hərbiyyə nəzarətinin müvafiq məmurlarına verilən isimlər barəsindəki qanun layihəsi" müzakirəyə çıxarıldı. Və Məclisə sədrlik edən Həsən bəy Ağayev məlumat verir:

"...Ərz etməliyəm ki, hərbiyyə nazirimiz həyatının qismi-əzəmini Rusiya daxilində keçirdiyindən və məruzədə bir çox xüsusi islahlar olduğundan onları türkcə deməyə qadir degildir. Ona görə də özü rica ediyor, bən də öz tərəfimdən təvəqqe ediyorum, bu günlüyə istisna olaraq izin verəsiniz, mətləbini rusca söyləsin. Çünki mətləb əhəmiyyətlidir və türk dilində mühüm mətləbləri izah edəmiyəcəkdir".

Və yerlərdən səslər gəlir:

"Qəbuldur, qəbuldur!"

Hərbiyyə naziri Səməd bəy Mehmandarov çıxışına belə başlayır:

"Bən qabaqca parlamandan üzr istəməliyəm ki, rusca danışacağam. Çox utanıyorum ki, öz dilimi Məclisi-Məbusanda danışmaq qədər bilmədiyimdən rusca söyləməyə məcburam".

Hərbiyyə nəzarətinin fəaliyyəti müzakirə edilərkən Məclis üzvü Rəfiyev bildirir ki, araqarışdıranlar "guya komanda türk dilində degil, rus dilindədir" yalanını yayırlar, halbuki "komanda türk dilindədir".

Məclisin 14 aprel 1919-cu il tarixli iclasında Rəisi-Vükəla Nəsib bəy Yusifbəyli deyir:

"Məlumunuzdur: istiqlalımız həp məarifə bağlıdır. Əgər milli məarifimiz, milli məktəbimiz tərəqqi etməzsə, bizim üçün fəlah və nicat ümidi qalmaz. Hökumət bunu biliyor. Bunun üçün ibtidai təhsilin ümumi olmasına əsas hazırlamaya və iş bu eylüldən etibarən mütəəddid ibtidai məktəblər açmaya təşəbbüs edəcəkdir... Mövcud edadilərdən bir qismi tədricən milliləşdiriləcək, digər qismi isə qeyri-müslim cocuqlar üçün rus lisanında ibqa ediləcəkdir. Hər millətin kəndi lisanında oxumasına heç bir maneə olmadığından onların cocuqları üçün hökumət hesabına məktəblər açılacaqdır.

...Tiflisdə bulunan Mavəzayi-Qafqaz darülfünununun paytaxtımıza nəqli üçün müzakirata girişərək eylül ibtidalarında tədrisata burada dəvam edilməsinə səy və iqdam edilməkdədir.

Darülfünunumuzda, təbii, lisanımızın, tariximizin, ədəbiyyatımızın inkişafına xidmət edə biləcək kürsülər açıqdır".

N.Yusifbəylinin bəyannaməsi müzakirə olunarkən parlament üzvü doktor Koxman söz alır: "Koxman: Hökumətin bəyannaməsi ruscaya tərcümə olunmadığına görə biz səs verə bilməyəcəgiz.

Səslər: Tərcümə edilsin... Veriniz tərcüməsini özləri oxusunlar...

Sədr: Belə olan surətdə belə eləmək olar: bəyannaməni verək özləri oxusunlar, o vəqtə qədər tənəffüs elan ediyorum".

Tənəffüsdən sonra Koxman mövqeyini bildirir:

"Hökumət bəyannaməsi rusca tərcümə edilmədigindən və biz onun məzmununu bilmədigimizdən formulaya səs verə bilməyəcəgimizi xəbər vermişdik. Şimdi məzmununa aşina olduq. Ona görə də lehinə səs verəcəgiz".

Məclisin 7 avqust 1919-cu il tarixli iclasında təbəəlik haqqında qanun layihəsi müzakirə edilərkən "qeyri-müsəlman məbuslar tərəfindən bir təklif varid oluyor. Məsələ mühüm olduğundan rusca danışılsın, yaxud türkcə irad olunan nitqlər ruscaya tərcümə edilsinlər". Və bu zaman Məclis üzvü Mustafa Vəkilov yerindən deyir:

"Qətiyyən öylə şey olmaz. Məclisi-Məbusanda rusca nitq söyləmək qanunumuzda yoxdur".

Slav-rus cəmiyyətinin nümayəndəsi Kravçenkov, təbii ki, rusca çıxış edərək məsələni yumşaltmağa çalışır:

"Burada sizin milli hissinizə toxunacaq bir şey də yoxdur... Xahiş ediyoruz, bu məsələ haqqındakı nitqlər rus dilində irad, yaxud türkcə söylənib də ruscaya tərcümə edilsinlər".

Müsavatçı Mustafa Vəkilov məsələyə münasibətini daha kəskin bir şəkildə bildirməli olur:

"Bən başa düşmüyorum, həddindən ziyadə səbirli olduğumuzdanmı, yaxud hər şeyə kəmetinalıq göstərdiyimizdəndir ki, bu gün bizə Məclisi-Məbusanımızda bizdən əcnəbi dildə danışmağımızı tələb ediyorlar. Ümum millətlərdə, hər bir dövlətdə qəbul edilmiş və heç vəqt əl vurulmamış olan əsaslardan birisini biz də qəbul etmişik ki, Məclisi-Məbusanda öz dilimizdə danışaq. Bizim dilimiz var. O dildə danışmağa haqqımız var. Və danışmağa qərar vermişik. Qaldı ki, bizim uca səslə bu kürsüdən verilən dərsə də ehtiyacımız yoxdur. Milli hissiyyatımıza nə toxunar, nə toxunmaz, - onu özümüz yaxşı biliyoruz. Uca səslə demək lazım degildir. Bundan əlavə, bu vəqtədək Məclisi-Məbusanda bundan daha böyük, daha mühüm məsələlər müzakirə və həll edilmişdir...

...Burası Azərbaycan Məclisi-Məbusanıdır. Azərbaycanlıların öz dili var, öz Məclisində öz dilini danışmalıdı... bir də böylə təkliflər edilməməlidir. Nitqlərin türkcə irad edilib də ruscaya tərcümə edilməsinə ki, necə bu vəqtədək Parlamanda heç vəqt böylə şey olmamışdır, bundan böylə də olmamalıdır, ola da bilməz".

Dil məsələsi özünü tamamilə fərqli (və yüksək intellektual) səviyyədə Azərbaycanda universitet açılıb-açılmaması ilə bağlı 21 avqust 1919-cu il tarixli iclasda ortaya çıxır...

Məclis üzvü keşiş Kravçenkov bu hadisədən şovinist məqsədlərlə sui-istifadə etmək istəyir:

"...Bizi vadar ediyor inanaq ki, cavan Azərbaycan darülfünunu rus ülum və fününuna dara və bu mənbədən çıxacaq, elmiyyə əxz edəcək olanların qəlbində rus mədəniyyətinə qarşı məhəbbət odu yandıra biləcək bir çox adamlar görəcəkdir. Doğrudur, elm beynəlmiləldir (səslər: "doğrudur!"), fəqət darülfünuna rus professorları cəlb edilməsi bizi ruhən şad ediyor ki, Bakıda tezlik ilə darülfünun açıla biləcək və rus elmi, rus mədəniyyəti qalib olacaqdır (gülüş, səslər, anlaşılmaz sözlər, səs-küy)".

Və bu "səs-küy"ün içində nələrin "gizləndiyi"ni anlamamaq mümkün deyil...

M.Ə.Rəsulzadə keşişə dərhal cavab verib deyir:

"Yaxşı olardı ki, bu elm və mədəniyyət mənbəyi türkcə olaydı. Fəqət hələlik bu mümkün degildir. Fəqət bu maneədə heç vəqt və heç kəsi özgə dildə də olsa darülfünun açmaqdan daşındırmamışdır, daşındırammaz da... Kravçenko "rus-rus" deməklə bizi qorxudamaz... Bundan əlavə, məlumunuzdur ki, darülfünun açılan gündən milliləşdirmə binövrəsi qoyuluyor. Darülfünunda türkcə tədris ediləcək və tələbələrimiz türk mühiti içərisində öz millətinə yaxın olacaqdır".

Daha müfəssəl (və professional) izahı isə maarif naziri Rəşid xan Kaplanov təqdim edir:

"...Bənligini dərk etmiş bir millət üçün heç bir imtahan qorxunc degildir... Bən zənn ediyorum ki, nəinki yalnız Azərbaycan, bəlkə bütün türk aləmində mövcud qüvveyi-elmiyyələr bu adı daşımaya layiq bir darülfünun açmaq üçün kifayət etsin. Fəqət o qədər qüvveyi-elmiyyəmiz olsa belə, məktəbi-aliyyədə mühazirələri türkcə anlamaq istedadına malik tələbələrimiz yoxdur. Heç kəsdən gizli deyil ki, cavanlarımızın əksəri ana dilini pək zəif biliyor. Bəziləri halhazırda milli darülfünun açmaq qeyri-mümkün olduğuna istinadən cavanlarımızın əcnəbi məmalik darülfünunlarına göndərilmələrini tərcih ediyorlar.

...Bu yaxunlarda hüzurunuza təqdim ediləcək olan layiheyi-qanuniyyədən görəcəksiniz ki, əcnəbi məmləkətlərə yüz tələbə göndərmək üçün tam bir darülfünun saxlamaq qədər xərc lazım oluyor.

...Bən tələbələrin əcnəbi məmləkətə göndərilməsi əleyhində degiləm... Amma bu yol bizi milli darülfününa aparmaz. Onu yaratmaq üçün həqiqi çarə tez zamanda zəngin Avropa dillərindən birisində bir darülfünun açmaqdır. Yaşadığımız şərait altında bu dil rus dilidir... O darülfünun Azərbaycan dövlətinə və türk mədəniyyətinə xidmət edəcəkdir".

Azərbaycan Cümhuriyyətinin maarif naziri onu da əlavə edir ki:

"Zira həmin darülfünunun fəaliyyəti ayılmış, yaşamaq istəyən, zəngin bir lisana malik, mədəniyyətcə bəşəriyyətin mühüm bir qismilə mərbut olan bir millətin milli arzu və amalı ilə dolmuş bir mühit içərisində cari olacaqdır... Böylə əlverişli bir mühit daxilində... türk lisanı tədrisini yaxşı bir şərait altına qoymaq və sairə kibi bir çox tədabir ilə darülfünunumuzu müntəzəmən milliləşdirə bilərik".

Məclisdə universitet məsələsi müzakirə olunan günlərdə Ü.Hacıbəyli "Azərbaycan" qəzetində (21 sentyabr 1919-cu il) "Milliləşmək" məqaləsini dərc edir. Və həmin məqalə belə başlayır:

"Dövri-istibdaddan qalmış və bu gün Azərbaycan istiqlaliyyətinə yaraşmayan bir para işləri "likvidasiya" etmək, yəni aradan götürmək yolunda hökumətimiz ciddiyyətlə işləməkdədir. Bu... işlərin biri də rus dilidir ki, bu günə qədər aramızda hökumət lisanı hökmündə qalıb, Azərbaycan istiqlalının şərəfini azaltmaqla bərabər, Azərbaycan türkləri üçün dəxi az müşkülat törətmiyor".

Və Üzeyir bəy belə bir tarixi (eyni zamanda müasir!) paradoksu xatırladır ki: "Azərbaycan türk dili Ümumqafqazda yaşayan müxtəlif lisanlı millətlər arasında ümumi bir dil olmaq kibi böylə bir beynəlmiləl əhəmiyyəti haiz olduğu halda, yəni bir erməninin bir dağıstanlı, bir malakanın bir gürcü ilə qonuşub danışmaq üçün türk dilinə müraciət etməyə məcbur olduqları bir halda, bu dilə malik olan türklərin rus dilinə möhtac qalması nə qədər qərib və nə qədər gülünc bir haldır".

Bəs səbəb nə idi?

Dahi millət xadimi yazır:

"Bu qeyri-təbii hal, əlbəttə, rus istibdadının bərəkətindəndi ki, ruslaşdırmaq politikası sayəsində Azərbaycan türkləri öylə bir şərait içində yaşıyorlardı ki, həmişə rus dilinə möhtac qalırdılar... Türk dilinə dara olanlar bunu həyata tətbiq etmək və bundan məişət və güzaranları üçün bir faidə almaq imkanından məhrum edilmişlərdi. Rus istibdadı hər bir "bənd-bərə"ni kəsib dilimizə heç bir yerdə yol vermiyordu"...

Üzeyir bəy "milliləşmək xüsusunda" maarif naziri Rəşid xan Kaplanovun xidmətlərini yüksək qiymətləndirir:

"Milliləşmək xüsusunda maarif naziri tərəfindən iki böyük işə iqdam olunubdur: biri məktəblərin, digəri isə ümumhökumət müəssisələrinin milliləşdirilməsidir. Məktəblərin milliləşdirilməsi, doğrudan-doğruya, icra edilməkdədir. Müəssisələrin milliləşdirilməsinə isə bilavasitə iqdam edilib və vasitə olmaq üzrə bilatəfriq millət ümumməmurlarımız üçün türk dili kursları açılıbdır. Azərbaycan hökuməti dairələrində qulluq etmək istəyən və türk dilinə dara olmayan ümumməmurlar haman kurslara girib türk dili öyrənməyə məcburdurlar. Maarif naziri həzrətlərinin bu yolda ciddiyyətlə çalışmaları şayani-təbrik və layiqi-təhsindir. Bizə məlum olduğu üzrə nazir həzrətlərinin böylə milliləşdirmək tədbirlərinə qarşı protesto edən və bu iqtimatdan saki olanlar vardır. Lakin eşitdigimizə görə, nazir həzrətləri heç bir güzəştdə bulunmamağa qərar vermişlərdir"...

Bu sözlərin həqiqət olduğunu göstərən bir mühüm dəlil də ondan ibarətdir ki, bunu Üzeyir bəy deyir...

Məlum olduğu kimi, Cümhuriyyət Məclisindəki qeyri-müsəlman üzvlər, adətən, ümumxalq (ümumdövlət) marağından deyil, milli azlıq və ya icma maraqlarından çıxış etmişlər ki, onların biri də erməni Malxazyan olmuşdur... Məclislə hökumət arasında təfriqə yaratmaq istəyən bu adama maliyyə naziri Əliağa Həsənovun 17 noyabr 1919-cu il tarixdəki iclasda verdiyi cavab-izahat maraqlıdır: "Burada çox şey danışdılar... Malxazov cənabları dedilər ki, bu qanun layihəsi vəqtində büdcə komisiyonuna göndərilməyibdir və maliyyə naziri komisiyonda tez baxılmasına israr etməyibdir. Yaxşıdır ki, Malxazyan cənabları türkcə bilirlər, eşitsinlər, mən özümü bu barədə müqəssir bilmiyorum. Mən dəfəatla israr eləmişəm..."

Xalqın dilinin dövlət dili səviyyəsinə yüksəlməsinin, Məclisdə milli problemlərin məhz millətin öz dilində müzakirəsinin nə qədər önəmli olmasını parlament qəzeti "Azərbaycan" dəfələrlə vurğulamışdır. Əhməd Həmdi qəzetin 9 dekabr 1919-cu il nömrəsində Məclisin bir illik fəaliyyətini dəyərləndirərkən ən mühüm uğurlardan birini də göstərir: bu, ondan ibarətdir ki, keçən bir ildə Azərbaycan Parlamenti "lisani-milli ilə hər təsirini, hər fikrini söyləmiş, millətin həyəcan və hissiyyati-ümumiyyəsini bir mərkəzə toplayaraq tərcüman olmuş idi"...

Göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyəti milli parlamentində - Məclisi-Məbusanda milli dil məsələsinə, tamamilə təbii (və qanunauyğun) olaraq həmişə böyük təəssübkeşliklə yanaşılmışdır.

***Nizami CƏFƏROV,***
***Milli Məclisin deputatı,***
***akademik***

## Xalq Cümhuriyyətinin yadigarı olan nadir xalça aşkara çıxarılıb

Azərbaycan Xalq Cümhuriyyəti müstəqil dövlətçiliyimizin formalaşmasında mühüm bir mərhələdir. Bugünkü müstəqil Azərbaycan dövləti Xalq Cümhuriyyətinin varisidir. Odur ki, cümhuriyyətin yubileyləri ölkəmizdə böyük təntənə ilə qeyd olunur. Dövlət başçısının "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" sərəncamında qeyd olunduğu kimi, Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmayıb. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bilib. Bir gün Azərbaycanın müstəqil olacağına inanan insanlar müxtəlif vasitələrlə cümhuriyyətçilik ideyalarını yaşatmağa çalışıblar.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin (ASC) aşkara çıxardığı qədim və nadir xalça da belə nümunələrdən biridir.

"Azərxalça" ASC-nin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, 1926-cı ildə Qarabağda - Şuşa şəhərində toxunmuş bu xovlu xalça Azərbaycan xalçaçılığında unikal hadisədir. Ölkəmizin mədəniyyət tarixində ilk dəfə olaraq dövlət rəmzi - bayraq xalça üzərində öz əksini tapıb.

Azərbaycan Xalq Cümhuriyyətinin 21 iyun - 9 noyabr 1918-ci il tarixlərini əhatə edən ilk bayrağı xalq ustaları tərəfindən xalça üzərində əbədiləşdirilib. Xalçanın yazıları və təsvirləri ərəb kalliqrafiyasının qaydalarına müvafiq şəkildə soldan sağa doğru toxunub.



Bu sənət əsərinin üzərində onun hicri tarixi ilə 1345-ci ildə (miladi tarixi ilə 1926-cı il) toxunduğu qeyd olunub. Türkçülüyün əbədi rəmzi olan mavi rəngli arasahənin mərkəzində təsvir olunmuş qırmızı rəngli, ay-ulduz təsvirli bayrağın üzərində "Zikr edər cinnü-mələk həm insan. Yaşasın devletü Azərbaycan" və "Hür azade yaşatsun hamunu. Hem hüquq olsun er ile nisvan" misraları yazılıb. Ölçüsü 178 x129 sm olan xovlu xalça yundan toxunub.

1926-cı ildə müstəqil dövlətçilik atributunu əks etdirən belə bir xalçanın toxunması böyük cəsarət tələb edirdi. Bu, o dövr idi ki, müstəqillik ideyalarını təbliğ edən, Azərbaycanı azad görmək istəyən ziyalılar təqib olunur, 1930-cu illər repressiyasına hazırlıq gedirdi. Məhz belə bir dövrdə bu xalçanın toxunması onu göstərir ki, Azərbaycan xalqının müstəqil yaşamaq istəyini heç bir qüvvə boğa bilməyib. Müstəqillik ideyasının yaşadılması üçün xalçanın seçilməsi də təsadüfi deyil. Çünki xalça bizim milli sərvətimizdir, Azərbaycan xalqının dəyərlərini, həyat tərzini, tarixini özündə yaşadan qiymətli nümunədir. Bu fakt Prezident İlham Əliyevin xalçaçılığın inkişafına nə üçün belə yüksək diqqət və qayğı göstərdiyini, müstəqilliyimizi qoruyub saxlamaq naminə bütün vasitələrdən istifadə etdiyini bir daha sübuta yetirir.

Qeyd edək ki, bu unikal xalça nümunəsi 2013-cü ildə Hollandiyada şəxsi kolleksiyadan alınaraq ölkəmizə gətirilib.

Laçının işğalından 26 il keçir

# Laçının minillik yadigarları



Bu ulu yurddakı tarixi, dini, mədəniyyət abidələri erməni vandalları tərəfindən məhv edilir









Ulu babalarımızın çox dəyərli yadigarları hesab edilən maddi-mədəniyyət nümunələri respublikamızın əksər ərazilərində yetərincə var. Ona görə də ölkəmizə səfər edən səyyahlar Azərbaycanın tarixini özündə əks etdirən qədim dini və mədəni abidələrə heyranlıqlarını gizlədə bilməmiş və bu barədə dəfələrlə öz xatirələrində qeyd etmişlər.

Dağların zirvəsində əsrlərin "dizini qatlayan", minilliklərdən soraq verən qalalar məskəni Laçının vəsfi şeirin, musiqinin ritminə köklənib. Amma son illər bəstələnən bir mahnı da var ki, Laçının təkcə təbiətini deyil, taleyini də ifadə edir. Laçından uzaq düşüb xiffət çəkərək, sevilən mahnıları ilə xatirələrdə yaşayan Məhəbbət Kazımovun haraylı səsində "Laçınım... Laçınım... Laçınım mənim" təkcə Laçında doğulanları deyil, o yerlərin həsrətini çəkənləri də yandırıb-yaxır, qartalları iyirmi altı ildir ki, qıy vurmayan qayalı-daşlı dağlara səsləyir.

Laçın düşmən məkrinin, çirkin siyasətin qurbanı olub. Laçının işğalının növbəti ildönümündə o yurdlarda doğulmuşların qəlbindən qara qanların necə axmasını təsəvvür etmək o qədər də çətin deyil. Yazın gəlişi ilə dağlar yaşıl donuna bürünüb aran ellərini yaylağa haraylayardı... Şuşanın arxa-dayağı, söykənəcəyi olan Laçının bir tərəfi də Kəlbəcər idi...

Vaxtilə Soltan bəyin qarşısında baş əyən erməni qaçaq-quldurlarının törəmələri indi o yerlərdə "at oynadır!.." Xalqımızın ümumi sərvəti olan dağlarımızın yağmalanması ilə dəyəri milyardlarla ölçülən təbii sərvətlərimiz daşnakların əlinə keçdi, talandı. Təkcə maddi sərvətlər beşiyi deyildi Laçın. Burada minillərin, əsrlərin yadigarı olan maddi mədəniyyət abidələri - mənəvi sərvətlərimiz var idi. Təəssüflər olsun ki, bu gün sözdə humanizmin təbliği ilə məşğul olan beynəlxalq təşkilatlar da belə talanların qarşısını almaqda aciz görünür.

Laçından ayrıldığımız ötən illərdə burada ermənilərin məskunlaşdırılması beynəlxalq səviyyədə dəfələrlə müzakirə mövzusu olsa da, bunun nəticəsi görünmür, hələ bu ərazi Dağlıq Qarabağ üçün "koridor" rolu oynayır. Laçının ərazisindəki maddi mədəniyyət nümunələrimizin hansı səviyyədə olması isə işğal altında qalan torpaqlarımıza vaxtaşırı səfər edən beynəlxalq faktaraşdırıcı missiyanın üzvlərinə də məlumdur: daşı daş üstə qalmayıb. Tarixin yaddaşı olan abidələr bu yerlərdə çoxdan saxtalaşdırılıb - erməniləşdirilib. Bir sözlə, Azərbaycanın mədəni irsini hədəf seçən ermənilər işğal altında qalan maddi mədəniyyət abidələrini tamamilə və qəddarlıqla məhv etmişlər.

1992-ci il may ayının 18-də erməni işğalçıları rayonun yüzlərlə mədəni-məişət obyektini, onlarla qəsəbə, kənd və tarixi abidələrini dağıtdı. İşğal nəticəsində 63 min 341 Azərbaycan vətəndaşı öz yurdundan didərgin salınıb, 300-dən artıq hərbi və mülki şəxs həlak olub və ya itkin düşüb. Rayonda 154 məktəb, yüzlərlə tarix-mədəniyyət abidəsi işğal altında qalıb. Şuşanın Turşsu deyilən ərazisindən və Ermənistan istiqamətindən hücuma keçən düşmən geostrateji mövqeyə malik olan Laçını işğal etməsi ilə Azərbaycan iqtisadiyyatına ciddi ziyan vurub. Təbii sərvətlərlə zəngin Laçında Qaladərəsi, Ağanus, Xırmanlar, Tiqiq, Turştiqiq, Nurəddin, Nağdalı, Hacıxanlı kimi müalicəvi əhəmiyyətli bulaqlar var idi. Ümumi ehtiyatları 1124 ton olan 3 civə (Narzanlı, Çilgəzçay, Sarıbulaq), ehtiyatları 4457 min ton olan və əhəng istehsalına yararlı Laçın əhəngdaşı, ehtiyatları 2533 min kubmetr olan və istismara cəlb edilən üzlük daşı istehsalına yararlı Hocaz mərmərləşmiş əhəngdaşı, mişar daşı istehsalına yararlı 2 tuf (Ağoğlan, Əhmədli), 2 əlvan bəzək daşı, vulkan külü və digər təbii sərvətləri olub.

Rayondakı Qaragöl Dövlət Təbiət Qoruğu və Dövlət Təbiət Yasaqlığı da işğal altındadır. Ümumi sahəsi 240 hektar olan qoruqda 68 növdən və 27 ailədən ibarət bitki örtüyü vardı. 1961-ci ilin noyabr ayında heyvan və quşları qoruyub saxlamaq və artırmaq məqsədilə yaradılan Dövlət Təbiət Yasaqlığının ərazisində cüyür, dağkeçisi, çöldonuzu, ayı, turac, kəklik, qaratoyuq növləri olub. 1989-cu ildə yasaqlıqda aparılan yoxlama zamanı dağkeçisi 96, qaban 360, cüyür 320, ayı 110 baş, eləcə də çoxlu sayda digər vəhşi heyvanlar və quş növləri qeydə alınıb.

İşğalçılar beynəlxalq hüquq normalarına, zəbt olunan Azərbaycan torpaqlarından Ermənistan qoşunlarının qeyd-şərtsiz çıxarılmasına dair BMT-nin qətnamələrinə məhəl qoymayaraq Laçında qanunsuz məskunlaşmanı bu gün də davam etdirir.

Laçın dağlarında qədim və möhtəşəm mədəniyyət abidələri ilə təbiət bir-birini sanki tamamlayırdı. Cicimli, Güləbird, Soltanlar, Zeyvə, Malıbəy, Bülövlük, Araflı, Əliqululu, Malxələf, Hüsülü, Kosalar, Seyidlər, Pircahan və digər kəndlərdəki tarixi abidələr (12 qoç, 28 at fiquru, 36 müxtəlif süjetli yazılar və rəsmlər, sal daş, müxtəlif dövrlərdə ərəb əlifbası ilə yazılmış, bir-birinə bənzəməyən sənət rəmzləri həkk edilmiş qəbirüstü daşlar, məşhur Sarı Aşığın sevgilisi Yaxşının məzarı) bu torpaqlarda minillər boyu yaşayan əcdadlarımızın bizə yadigar qoyduğu nişanələr idi.

Rayonun Cicimli kəndindəki məbəd, qədim anbar, Güləbirddə Sarı Aşığın qəbirüstü ziyarətgahı, rayon tarix-diyarşünaslıq muzeyi əsrlərin canlı salnaməsi idi. Muzeydə toplanmış nadir eksponatlar Laçının zəngin tarixi keçmişi haqqında dolğun təsəvvür yaradırdı. Təəssüf ki, Laçının işğalı nəticəsində bu tarixi incilər də təcavüzün qurbanına çevrildi. Bütün bunlar az imiş kimi, milli mədəniyyət abidələrimiz olan qala və məbədlər saxtakarcasına erməniləşdirilir. Belə təcavüzə məruz qalan abidələrdən Laçının işğalından sonra saxta erməni kilsəsi kimi təqdim olunan Ağoğlan abidəsi, Böyük Vətən müharibəsi iştirakçılarının xatirə kompleksinin erməniləşdirilməsi, şəhərin qərb istiqamətdən çıxışında tikilmiş abidə - "Qala qapısı" (üzərində erməni xaçı) və s. dediklərimizə əyani sübutdur.

Laçının ərazisindəki memarlıq abidələrinin əksəriyyəti Qafqaz Albaniyası dövrünün yadigarlarıdır. Memarlıq elmləri doktoru D.A.Axundov və fəlsəfə doktoru M.D.Axundov "Qafqaz Albaniyasının stellalarında dini simvolika" və "Dünyanın mənzərəsi" adlı məqalələrində yazırdılar ki, düzbucaqlı çərçivə içərisində cızma texnikasında işlənilən qadın, çox güman, Ay allahı kimi təsvir olunmuşdur. Göstərilən bu stellalar xristianlıqdanəvvəlki dövrə, bəlkə də daha qədimlərə aiddir. Buna bənzər, daha doğrusu, tamamilə onun eyni olan bir stella da Kosalar kəndində, Ağoğlan qəsrinin həyətində idi.

Belə abidələr Laçınla qonşuluqda yerləşən Kəlbəcər rayonu ərazisində də mövcud idi. Kəlbəcərin bir hissəsi Alban dövlətinin Xaçın knyazlığının tərkibində olub. Ora yaxın olan Laçın rayonunun ərazisində bir sıra adlar Xaçınla bağlıdır. Bozlu kəndi ərazisində olan Xaçın daşı və s. Təəssüf ki, Ermənistan bu abidələri də "özününküləşdirib".

Alı Xəlifə ocağı Laçının Böyük Seyidlər kəndində idi. Qarabağın ən ağır seyidlərindən sayılan Alı Xəlifə həmin kənddə dünyasını dəyişmişdi və məzarı üstündə sərdaba tikilmişdi. Ulu səcdəgahlardan biri də məhz Alı Xəlifənin ocağı idi.

Laçının müqəddəs yerlərindən biri də Böyük Seyidlər kəndindəki Seyid Hüseyn ziyarətgahı idi. Bu kənddəki ziyarətgahların sırasına daxil olanlardan biri də "Güllü qəbir" piri adlanırdı. Orada Hacı İbrahim ağa dəfn edilmişdi. Məlumatlara əsasən, o, Qarabağ ellərinin ağır övliyalarından sayılan Xudabəndə Xəlifənin nəvəsi idi.

Ağoğlan qəsri Laçının Minkənd çayının kənarında, hündür bir yerdədir. Cicimlidə məbəd, qədim anbar, Güləbirddəki Sarı Aşığın qəbirüstü ziyarətgahı, Zeyvədə Şeyx Əhməd, 1-ci və 2-ci Soltanbaba, Minkənddə XV əsr məbədi, Qarıqışlaqda Dəmirovlu pir-məbədi, Bülövlük kəndinin şimalındakı qədim Kişpəyədə və Piçənisdəki alban məbədləri, Xan qəbiristanlığındakı Zəngəzurun sultanları Qara Murtuza bəyin, 1-ci Alməmmədin, 2-ci Alməmmədin türbələri, Şeyx Şamillə dostluq etmiş, ona kömək göstərmiş Cəbrayıl bəyin türbəsi, Araflıda Murtuza Sultanın anasının türbəsi, Pircahan çayında Məşədi Mehralının arxitekturalı və Minkənd körpüləri kimi tarixin nadir inciləri erməni vandalları tərəfindən darmadağın edilib.

Kəndlərdə əsrlərin və qərinələrin yaşıdı abidələr, dağlardakı qalalar uzun illər yadellilərin hücumlarından qorunsa da, 1992-ci ildən başlayaraq daha ağır zərbə aldı, daş-divarlarındakı yaddaş tarixləri silinərək erməniləşdirildi və dünyaya "qədim erməni xalqının yazılı abidələri" kimi təqdim edildi.

Təbii ki, Laçın rayonu ərazisində bir vaxtlar mövcud olmuş tarixi abidə və məbədlər adları yuxarıda çəkilənlər deyil. Qalalar, məbədlər diyarında təbii sərvətlər bu gün də ermənilər tərəfindən vəhşicəsinə talan edilməkdədir. Son günlər oradan tapılmış xəzinə də bunu təsdiqləyir.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Dava yenə də qrant davasıdır

## Dağıdıcı müxalifət təmsilçiləri antiazərbaycançı şəbəkənin ayırdığı pulları bölüşdürə bilmirlər

Daim ixtilafların baş verdiyi və qarşıdurmaların ənənə halını aldığı dağıdıcı müxalifətin daxilində yeni çəkişmələr başlayıb. Söhbət xalqın gözündən birdəfəlik düşmüş və gələcəyini yalnız antimilli fəaliyyətdə görən müxalifətin bu hissəsinin təmsilçilərinin xarici qrant üstündə bir-birlərini qırmasından gedir.

İllərdir dağıdıcı müxalifət nümayəndələri, eləcə də xaricdə Azərbaycan əleyhinə iş aparan, ölkəmizin müstəqilliyini, inkişafını həzm edə bilməyən mərkəzlərlə əməkdaşlıq edən milli satqınlar bunun üçün antiazərbaycançı təşkilatlardan qrantlar alırlar. Bu asan qazanc üstündə illər boyu müxalifətdaxili və antimilli QHT-lər arasında mübarizə gedib və necə deyərlər, bu sahədə də mafiyalaşma yaranıb. Elə məlum düşərgəni təmsil edən müxalifətçilərin özləri də etiraf edirlər ki, böyük qrant mafiyası var və onlardan birinin başında AXCP sədri Ə.Kərimli dayanır. Erməni təəssübkeşi olan və hazırda antiazərbaycançı fəaliyyətini Avropa ölkələrində davam etdirən Leyla Yunusovanın da xaricdən qrant alınmasında aparıcı rol oynadığı sirr deyil.

Dağıdıcı müxalifət və "beşinci kolon" daxilində daim mövcud olmuş qrant dartışmaları bu günlərdə yenidən qızışıb. Belə ki, bir neçə gün əvvəl Helsinki komissiyası tərəfindən ABŞ konqresində Azərbaycanla bağlı dinləmələr keçirilib. Burada çıxış edən Emin Milli Əli Kərimli və onun timsalında dağıdıcı müxalifət haqqında tənqidi fikirlər söyləyib. O, AXCP-nin marginallaşdığını, cəbhəçilərin heç bir işə yaramayan faydasız varlıqlar olduqlarını deyib. Bununla da dağıdıcı müxalifət daxilində yeni qarşıdurma başlanıb. Budəfəki qarşıdurmanın bir tərəfində xaricdə Azərbaycan əleyhinə aparılan qərəzli kampaniyaların əsas təşkilatçılarından olan E.Milli, qarşı tərəfdə isə Ə.Kərimli və qaragüruhu dayanır. İndi iki qruplaşma arasında kəskin mübarizə gedir. Onların mübarizəsi tərəflərin bir-birini söyməsi, təhqir etməsi ilə müşahidə olunur.

Beləcə, dağıdıcı müxalifət daxilində qeyd etdiyimiz kimi, yeni qalmaqal başlayıb və indi onlar özləri-özlərini ifşa edirlər. Elə qrantla bağlı söz-söhbətlər də bu qalmaqaldan sonra ortaya çıxıb. Başqa sözlə, dağıdıcı müxalifət və ona bağlı olan QHT-lər daxilində xaricdən qrant alınması və istifadəsi üstündə dərin ziddiyyətlər, dartışmalar, çəkişmələr mövcuddur. Təsadüfi deyil ki, E.Millinin radikal müxalifətin və onun satellit QHT-lərinin "haqqını" və ayrılan qrantları təkbaşına mənimsəmək cəhdi digər "qrantyeyənlərin" qəzəbinə səbəb olub. Məsələn, Ə.Kərimlinin dəstəsindən olan Natiq Adilov sosial şəbəkədə E.Millini saxtakarlıqda və qrant üçün fəaliyyət göstərməkdə ittiham edib. Cəmil Həsənli isə E.Millinin rəhbəri olduğu "Meydan TV"nin aldığı qrantları doğrultmadığnı yazıb. Görünür, "Meydan TV"yə ayrılan irihəcmli qrantlar Cəmil Həsənlini ciddi narahat edir.

Tərəflər arasında qrant uğrunda mübarizə özünü sosial şəbəkələrdə daha aşkar şəkildə büruzə verir. Belələrindən nə desən gözləmək olar. Bir də ki, Azərbaycan xalqına ağıl dərsi keçməyə çalışan, ona rəhbərlik etmək xülyasına düşən müxalifət nümayəndələrinin və "beşinci kolon" təmsilçilərinin xarici qrant uğrunda bir-birlərinə qənim kəsilmələri ilk dəfə deyil. Dağıdıcı müxalifətin tarixində belə faktlar çox olub.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

18 may Beynəlxalq Muzeylər Günüdür

# Təbiətin canlı muzeyi

*Ermənistanın işğalçılıq siyasəti nəticəsində xalqımıza məxsus 83500-dən çox eksponat, 14 xatirə kompleksi və 1891 maddi-mədəniyyət resursu talan olunub*





Qədim insan məskənlərindən sayılan Azərbaycan başdan-başa maddi-mədəniyyət abidələri və tarixi özündə yaşadan sərvətlərlə zəngindir. Ona görə də yurdumuzun hər guşəsi sanki açıq havada təbii muzeydir. Qarabağda isə bu sərvətlər sayagəlməz dərəcədədir desək, daha doğru olar.

Beynəlxalq Muzeylər Şurasının təşəbbüsü ilə 1977-ci ildə 18 mayın Beynəlxalq Muzeylər Günü kimi təsis edilməsində məqsəd onların cəmiyyətin həyatında nə dərəcədə mühüm rol oynadığını göstərmək olub. Onu da qeyd edək ki, Beynəlxalq Muzeylər Günü dünyanın 100-dən çox ölkəsində qeyd edilir.

Qədim köklərə malik olan, öz keçmişinin tədqiqini gözləyən Kəlbəcərdə də rayonun tarixini əks etdirən muzey yaratmaq böyük vətənpərvərliklə bərabər mühüm və əhəmiyyətli iş idi. Əslində, Kəlbəcərin özünü ulu Tanrı bir muzey yaratmışdı: o yerlərə ən nadir nemətləri bəxş etmişdi. Saysız-hesabsız bulaqlar, dörd mindən artıq bitki növü, qədim loğmanların can dərmanı saydığı 200 növdən çox dərman bitkisi, zəngin meşə örtüyü, narzan suları, dünyada tayı-bərabəri olmayan istisuyu, 100 növdən çox mineral və süxurlardan ibarət daş xəzinələri, nadir qayaüstü rəsmlər və s. cəmləşib Kəlbəcər boyda muzey olmuşdu.

Kəlbəcərdə sənətkarlıq da qədimlərdən qalma yadigar kimi qorunub saxlanmışdı. Belə ki, burada xalça-palaz, kilim, cecim, dərmə və s. əl işləri qadınların və qızların məşğuliyyəti olmaqla yanaşı, həm də maddi-mədəni sərvətlərimizin artırılması demək idi.

Bütün bunlar barədə Kəlbəcər muzeyində olduqca zəngin eksponatlar toplanmışdı. Sözün əsl mənasında Kəlbəcərin simvolu idi bu muzey. Divarlarının fasad tərtibatında 2000-dən çox müxtəlif rəngli-çalarlı daşlardan istifadə olunmuşdu. Əslində, muzey binası yox, qiymətli bir memarlıq abidəsi, əsasən təbiət təsvirlərindən, Kəlbəcər ərazisində yaşayan heyvan və quşların daşlaşmış rəsmlərindən ibarət mozaika yaradılmışdı.

Rayonun əhalisi muzeyə eksponat toplanmasında həvəslə iştirak edirdi. Qısa müddət ərzində burada artıq 47 min ədəd nadir əşya var idi. Hətta onların bəziləri dünya səviyyəsində nadir eksponatlar sayılırdı. Muzey Kəlbəcəri dünyada tanıtmışdı. Xarici ölkələrdən gəlmiş alimlər muzeyə baxanda öz heyranlıqlarını gizlətmir, eksponatlara valeh olurdular. Məsələn, atın Günəş tanrısına qurban verilməsini əks etdirən barelyefə Amerika alimləri 50 min ABŞ dolları təklif etmişdilər.

Muzey Kəlbəcərin ən qədim yaşayış məskəni olmasını sübut edən tarixi eksponatlarla zənginləşdirilmişdi. Təsadüfi deyildi ki, ötən əsrin səksəninci illərinin sonlarına yaxın Moskvada Dünya Geoloqlarının XXVII konqresi keçirilərkən 67 ölkənin 162 alimi adı dillər əzbəri olmuş muzeyi görmək üçün Kəlbəcərə gəlmişdi. O zaman SSRİ Elmlər Akademiyasının müxbir üzvü A.A.Marakuşov muzeyin xatirə kitabına yazmışdı: "...Bu, dünyada etnoqrafiyaya həsr olunmuş nadir və əvəzedilməz muzeydir".

Muzeyin həyətindəki qaya salları üzərindəki 6-7 min illik tarixə malik keçi təsvirləri, bürünc keçi totemi, habelə muzeydəki kilim, heybə və nənni başlıqları, 150 il bundan əvvəl toxunan keçi şəkilləri və onların hər üçünün bir-birinə oxşarlığı indiki nəslin qədim kökə bağlı olmasını sübut edir və tarixçilərin mübahisələrinə son qoyurdu.

1980-ci illərin əvvəllərində yaradılmış Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin həyəti 900 kvadratmetrdən artıq idi. 2005-ci ildən muzeyin direktoru işləyən Bərzani Əsgərov deyir ki, 6000 eksponatdan ibarət fondu olan muzeydə 10 minə yaxın kitab saxlanılan kitabxana da fəaliyyət göstərirdi: "Muzeydə Azərbaycanın bir çox tanınmış görkəmli şəxsiyyətlərinin maqnitofon lentlərinə yazılmış səsləri toplanmışdı. Burada xalq şairi Səməd Vurğunun, akademik Mirəli Qaşqayın, görkəmli yazıçılardan Süleyman Rəhimov və Əli Vəliyevin, tanınmış elm xadimi Xudu Məmmədovun, tənqidçi ədəbiyyatşünas alim Qasım Qasımzadə və Qulu Xəlilovun, habelə başqalarının səsi yazılmış lentlərini dinləmək mümkün idi. Burada Kəlbəcərin ərazisindəki məşhur Lök qalasının maketi, dağlarında yaşayan bir çox vəhşi heyvanın müqəvvası, 150 milyon il yaşı olan, Tərtər çay qumluğunda aşkar edilmiş daşlaşmış ilbiz nümunələri, ibtidai icma quruluşu dövrünə aid oxlar, bıçaqlar, baltalar, dəmir nizə ucluqları və s. nümayiş etdirilirdi".

Zəngin bir dəhlizdən, 3 kabinetdən, 9 nümayiş salonundan və 30 mindən çox eksponatdan ibarət fonda malik muzeyin çöl divarlarında 2037 rəng çaları olan daşlardan istifadə edilməklə mozaika işlənmişdi. Muzeyin həyətində daşdan yonulmuş 14 qəbirüstü at və qoç heykəli nümayiş etdirilirdi. Burada "Bəzir daşı" deyilən iki qədim abidə nəzərə çarpırdı. Dəyirman daşlarından 10 dəfə böyük olan bu daşları qoşqu vasitəsilə dikinə fırladıb zəyərəkdən yağ alırmışlar.

Mütəxəssislər və tamaşaçılar bu ziyarətgahı həm də geologiya, arxeologiya, incəsənət və səs muzeyi adlandırırdılar. Burada 1986-cı ildə 147 yaşında vəfat etmiş və vaxtilə Aşıq Ələsgərin gözəlliyinə söz qoşduğu kəlbəcərli Güləndam nənənin şəkli, onun öz əlləri ilə toxuduğu 100-dən artıq xalça-kilim də saxlanılırdı.

Təəssüflər olsun ki, regionda unikallığı ilə seçilən muzey 1993-cü ildə Kəlbəcərin işğalı zamanı düşmən tərəfindən dağıdılmış, 30 mindən çox muzey eksponatı Ermənistana aparılmışdır. Maddi-mədəniyyət və dini abidələrin dağıdılması ilə əlaqədar Ermənistan beynəlxalq hüquqi məsuliyyət daşıyır.

Həmsöhbətimiz bildirir ki, cənab Prezident İlham Əliyev 18 noyabr 2015-ci ildə UNESCO-nun Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumundakı çıxışında digər strateji məsələlərlə bərabər, ölkəmizin mədəniyyət diplomatiyası və Ermənistanın işğal etdiyi tarixi torpaqlarımızda xalqımızın maddi-mədəni və dini irsinə qarşı törətdiyi vandalizm əməllərini əsaslı faktlarla beynəlxalq ictimaiyyətin diqqətinə çatdıraraq xatırlatdı ki, Azərbaycanın Dağlıq Qarabağ regionu və ətraf yeddi rayonu, eləcə də Qazaxın yeddi yaşayış məntəqəsi ilə Naxçıvanın Kərki kəndinin işğalı nəticəsində 738 tarixi abidə, 83500 ədəddən çox eksponata malik 28 muzey, 4 şəkil qalereyası, 14 xatirə kompleksi və 1107 mədəniyyət müəssisəsi daxil olmaqla, 1891 ədəd maddi-mədəniyyət resursu talan edilib.

Xalqımızın ümummlli ideri Heydər Əliyev tərəfindən muzey işinin inkişafı üzrə müəyyən edilmiş prioritetlər bu gün dövlət başçısı İlham Əliyevin, eləcə də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilir.

Kəlbəcərin işğalından sonra tarix-diyarşünaslıq muzeyi Bakı şəhərinin Nərimanov rayonunda müvəqqəti sığınacaq tapmışdı. Bu gün isə Abşeron rayonunun Mehdiabad qəsəbəsində fəaliyyətini darısqal otaqda davam etdirən muzeyin əməkdaşlarının fədakarlığı hesabına, dövlət vəsaiti xərclənmədən, fonduna 5.665 ədəd eksponat toplanıb.

Tarix yalnız xalqın yaddaşında və dumanlı xatirələrdə deyil, daşlaşmış abidə kitablarda yaşayır. Bu daş kitabələrin muzey eksponatlarına çevrilənləri daha uzunömürlü olur.

***M.NƏRİMANOĞLU, Ağəli MƏMMƏDOV (foto), "Azərbaycan"***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı LOT-lar üzrə

## *açıq tender elan edir*

**LOT 1:** Maliyyə savadlılığı üzrə maarifləndirici kitabçaların, bukletlərin, müxtəlif promo-materialların və öyrədici resursların hazırlanması işlərinin satın alınması;

**LOT 2:** “Maliyyə savadlılığı” portalı (www.bizimpullar.az) üçün öyrədici animasiyaların hazırlanması işlərinin satın alınması;

**LOT 3:** Mərkəzi Bankın virtual təhsil platformasının mobil versiyasının hazırlanması və istifadəyə verilməsi işlərinin satın alınması.

1. Tender proseduru **09 iyul 2018-ci il tarixində saat 15:00-da** Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, Rəşid Behbudov küçəsi 90) keçiriləcəkdir.

2. Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə (iştirak ediləcək satınalma predmeti dəqiq göstərilməklə);*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsinə dair bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 20 avqust 2018-ci il tarixinədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faiz məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən formada);*
- *son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi üzrə vaxtı keçmiş öhdəliklərinin olmaması barədə dövlət orqanlarından arayış;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

3. İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 06 iyul 2018-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 27 iyun 2018-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, Rəşid Behbudov küçəsi 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

4. İddiaçı tenderdə iştirak haqqı kimi Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına hər bir iştirak etdiyi LOT üzrə 100 (yüz) manat məbləğində vəsait köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı,**
**Kod: 501004,**
**VÖEN: 9900071001,**
**Hesab: AZ25NABZ01701190000000001944,**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944,**
**S.W.I.F.T. BİK NABZAZ2C**

5. Satınalmaya başlanma vaxtı (hər 3 LOT üzrə): satınalma müqaviləsi imzalandığı gündən.

6. Malların təchizatı və işlərin görülməsi müddəti:
LOT 1 üzrə satınalma müqaviləsi imzalandığı gündən 120 (bir yüz iyirmi) təqvim günü müddətində;
LOT 2 üzrə satınalma müqaviləsi imzalandığı gündən hər sifariş üzrə 60 (altmış) təqvim günü müddətində;
LOT 3 üzrə satınalma müqaviləsi imzalandığı gündən 180 (bir yüz səksən) təqvim günü müddətində.

7. Qiymətləndirmə meyarları (hər 3 LOT üzrə): maliyyə və texniki amillər.

8. Tenderdə iştirak etmək istəyən iddiaçı şirkətlər iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək, Mərkəzi Bankın Bakı şəhəri, Rəşid Behbudov küçəsi 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.
Əlaqələndirici şəxslər:

**Elvin Şirdanov (Hüquq departamenti),**
**telefon: 493-11-22 (dax.tel:428)**
**Ülkər Babayeva (İqtisadi maarifləndirmə şöbəsi),**
**telefon: 493-11-22 (dax.tel: 593)**
**Fəxri Quliyev (İqtisadi maarifləndirmə şöbəsi),**
**telefon: 493-11-22 (dax.tel: 249)**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Mərkəzi Bankın inzibati binalarında kovrolit örtüyün mexaniki üsulla sulu-kimyəvi təmizlənməsi ilə bağlı kotirovka sorğusu və “Azərbaycan” qəzetinin 20 aprel 2018-ci il tarixli nömrəsində dərc edilmiş Mərkəzi Bankın Regional Mərkəzlərinin inzibati binalarında təmir-bərpa işlərinin görülməsi ilə bağlı kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 02 may 2018-ci il tarixli qərarı və Mərkəzi Bankın inzibati binasının 1-ci (giriş) mərtəbəsində ulu öndər Heydər Əliyevin büstüətrafı sahənin qranitlə üzləmə işlərinin yerinə yetirilməsi və gül dekorasiyaları ilə bəzədilməsi işlərinin görülməsinə dair kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 08 may 2018-ci il tarixli qərarına əsasən, müvafiq olaraq 1-ci məsələ üzrə “Flauer Klininq Servis” MMC, 2-ci məsələ üzrə “Ahmadoğlu Construktion” MMC və “Ulduz-2013” MMC və 3-cü məsələ üzrə isə “Dəvəli” MMC qalib elan edilmişdir. Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır. Mərkəzi Bank kotirovka sorğusuna maraq göstərdiyinə görə bütün iddiaçılara öz təşəkkürünü bildirir, onlara işlərində müvəffəqiyyətlər arzulayır.

***Satınalmalar komissiyası***

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi İkinci Respublika İnnovasiya

## *müsabiqəsini elan edir*

***Birləşmiş Millətlər Təşkilatının 2030-cu ilədək Dayanıqlı İnkişaf üzrə Gündəliyinin məqsədlərinin təşviqi, innovasiyaların həvəsləndirilməsi, həmçinin “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının və Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin icrasına dəstək məqsədilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Milli Elmlər Akademiyası və Birləşmiş Millətlər Təşkilatının Azərbaycan nümayəndəliyi ilə birgə İkinci Respublika İnnovasiya müsabiqəsini elan edir.***

**Müsabiqəyə aşağıdakı sahələri əhatə edən və innovativ ideyaları əks etdirən layihələr qəbul olunur:**

**İqtisadi:**

✓ *innovativ startap və biznes inkubator;*
✓ *yüksək əlavə dəyər yarada biləcək texnologiya və innovativ istehsal metodları;*
✓ *dayanıqlı infrastruktur və şəhərlərin qurulması məqsədilə qabaqcıl mühəndislik;*
✓ *turizm, bank və sığorta sahəsində innovativ ideya və ya biznes layihə;*
✓ *cəmiyyətin bütün təbəqələrinin sosial-iqtisadi, mədəni və ictimai həyatda iştirakını təmin edəcək təbliğat-təşviqat;*
✓ *iqtisadi məhsuldarlığı yüksəldəcək yeni texnoloji avadanlıqlar və metodlar;*
✓ *daha az kapital tutumlu infrastruktur;*
✓ *nanomateriallar, nanotexnologiyalar və onların tətbiqi;*
✓ *innovativ logistika;*
✓ *dövlət xidmətlərinin göstərilməsi sahəsində İT (İoT) həllər;*
✓ *İKT sahəsində innovasiya.*

**Sosial:**

✓ *innovativ sosial xidmətlər;*
✓ *dövlət və özəl sektor ilə peşə təhsili müəssisələri arasında qarşılıqlı əməkdaşlıq üzrə innovativ ideya;*
✓ *əməyin təşkili və təşkilati mədəniyyət;*
✓ *aktiv əmək bazarı və məşğulluq tədbirləri ilə bağlı innovativ ideya və ya mexanizm;*
✓ *sosial infrastruktur və ictimai həyatda innovasiya;*
✓ *səhiyyə və təhsil sahəsində göstərilən xidmətlərin yüksəldilməsinə yönələn innovativ layihələr;*
✓ *mədəni və təbii irsin qorunması;*
✓ *əhalinin həssas qrupu (uşaqlar, gənclər, əlillər və s.) imkanlarının inkişafı və gender məsələləri ilə bağlı təşviqat;*
✓ *yaşayış məntəqələrinin planlaşdırılması və idarə edilməsi;*
✓ *kommunal xidmətlərin keyfiyyətinin artırılması;*
✓ *həssas qrupların (uşaqlar, gənclər, əlillər və s.) cəmiyyətə inteqrasiyası üçün həllər;*
✓ *açıq məlumatlardan istifadə üzrə innovativ ideyaların və həllərin tətbiqi;*
✓ *şəhərlərin idarə olunmasında İT həllər (Smart City);*
✓ *urbanizasiya.*

**Ətraf mühit:**

✓ *yaşıl iqtisadiyyat;*
✓ *ekoloji təmiz kənd təsərrüfatı istehsalı;*
✓ *ekoloji təmiz nəqliyyat;*
✓ *elektron kənd təsərrüfatı sisteminin qurulması;*
✓ *iqlim dəyişikliyi və təbii fəlakətlərə qarşı erkən xəbərdarlıq ilə bağlı sistemin qurulması və maarifləndirmə;*
✓ *ekoloji təmiz şəhər həyatı;*
✓ *ətraf mühitin təmizlənməsi üzrə texnologiya və ya ictimai innovasiya;*
✓ *tullantıların utilizasiyası;*
✓ *enerji səmərəliliyi;*
✓ *alternativ enerji mənbələrindən (külək, günəş və s.) istifadə;*
✓ *tullantısız və ya az tullantılı texnologiya;*
✓ *ərzaq tullantılarının səmərəli və ekoloji istifadəsi;*
✓ *iqlim dəyişikliyi ilə bağlı yerli şəraitdə effektiv planlaşdırma və idarəçilik;*
✓ *dəniz və sahilyanı ekosistemlər;*
✓ *meşələrin, bataqlıq ərazilərin, dağların və quru ərazilərin qorunması, bərpası və dayanıqlı istifadəsi;*
✓ *biomüxtəlifliyin qorunması.*

**Müsabiqəyə təqdim edilən layihəyə dair tələblər**

- Texniki-iqtisadi əsaslandırma;
- Sahələr üzrə prioritetlik;
- İqtisadi səmərəlilik;
- Həyata keçirilməsinin mümkünlüyü.

**Layihələrin təqdim edilməsi müddəti**

Müsabiqədə iştirak etmək istəyən namizədlər layihələrini 2018-ci ilin 20 sentyabr tarixinədək Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “İdeya Bankı” platforması üzərindən təqdim edə bilər. Bunun üçün www.ideyabanki.com internet səhifəsində qeydiyyatdan keçib, “2018-İnnovasiyalar” müsabiqəsini seçib, təqdim olunan formanı dolduraraq layihənizi göndərə bilərsiniz.

**Müsabiqənin qalibləri mükafatlandırılacaqdır:**

- Birinci yer - 5 000 manat
- İkinci yer - 3 000 manat
- Üçüncü yer - 2 000 manat.

Müsabiqə çərçivəsində bəyənilən layihələr reallaşdırılması və tətbiqi məqsədilə Müsabiqə Komissiyası tərəfindən müxtəlif dövlət qurumları, təşkilatları və sahibkarlıq subyektləri üçün təşviq edilməsinə dəstək göstəriləcəkdir. Eyni zamanda əsas mükafatlandırma ilə yanaşı, komissiya tərəfindən bəyənilən layihələr üzrə həvəsləndirici mükafatlar nəzərdə tutulmuşdur.

## ELAN

“İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2018-ci il tarixli 5 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ləğv edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 319s nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin ləğv edilməsi məqsədilə Ləğvetmə komissiyası yaradılmışdır.

Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin kreditor borcları olan hüquqi və fiziki şəxsləri öz tələblərini 18 may 2018-ci il tarixindən 18 iyul 2018-ci il tarixinədək Ləğvetmə komissiyasına bildirə bilərlər.

**VÖEN: 1400386271**
**Hüquqi ünvan: AZ1147 Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov qardaşları küç.124.**
**Əlaqə tel: (012) 449-99-59 (daxili 121)**

***Ləğvetmə komissiyası***

# Beynəlxalq aləm

## HADİSƏLƏR, FAKTLAR

### Misirdə 19 ekstremist zərərsizləşdirildi

Misir hərbçiləri “Sinay-2018” antiterror əməliyyatı zamanı 19 ekstremisti zərərsizləşdirmişlər. Bu barədə “RİA Novosti” agentliyi xəbər verir.

10 cinayətkar Sinay yarımadasının bir neçə rayonunda hərbçilər tərəfindən məhv edilmiş, 9 cinayətkarı isə hərbi əməliyyatda iştirak edən polis əməkdaşları zərərsizləşdirmişlər.

Xatırladaq ki, Misir Silahlı Qüvvələrinin “Sinay-2018” əməliyyatı fevralın əvvəllərindən bəri davam edir. Artıq 200-dən çox terrorçu məhv edilmiş, ekstremist fəaliyyəti ilə məşğul olan yüzlərlə silahlı saxlanmışdır.

### Bağdadda terror aktı

İraqın paytaxtı Bağdadda intiharçının həyata keçirdiyi terror aktı nəticəsində 5 nəfər həlak olmuşdur. Bu barədə “İnterfaks” agentliyi xəbər verir.

Bağdad polisinin nümayəndəsi, kapitan Əhməd Xəlifin dediyinə görə, intiharçı üstündə gizlətdiyi bomba ilə paytaxtın şimalında yerləşən Tarimiyyə rayonunda keçirilən dəfn mərasiminə gələrək partlayıcı qurğunu işə salmışdır. İlkin məlumata görə, azı 5 nəfər həlak olmuş, onlarca adam yaralanmışdır.

Təhlükəsizlik qüvvələri hadisə baş vermiş rayonu mühasirəyə almışdır. Partlayışa görə məsuliyyəti hələ ki heç bir qruplaşma üzərinə götürməmişdir.

### Avropa Komissiyası Şengen viza sistemini sərtləşdirmək istəyir




Avropa Komissiyası Şengen viza sistemi çərçivəsində məlumatların nəzarət və yoxlama mexanizmlərini xeyli sərtləşdirməyi təklif etmişdir. Bu barədə TASS agentliyi xəbər verir.

Belçikanın paytaxtı Brüsseldə yeni təklifləri irəli sürən miqrasiya, daxili işlər və vətəndaşlıq üzrə Avropa komissarı Dimitris Avramopulos demişdir: “Hər il milyonlarla əcnəbi vətəndaş qısamüddətli, yaxud uzunmüddətli vizalarla Aİ-yə gəlir. Biz viza informasiya sistemimizi modernləşdirmək, məlumat bazalarındakı boşluqları aradan qaldırmaq, habelə viza orqanlarına və sərhədçilərə daha çox informasiya vermək niyyətindəyik. Cinayətkarlar və potensial terrorçular gizli şəkildə Avropaya daxil olmamalıdırlar. Aİ qala deyil, lakin biz sərhədlərimizi keçən adamları tanımalıyıq”.

### Ekvador Assanjın təhlükəsizliyinə 5 milyon dollar xərcləyib



Ekvador hökuməti WikiLeaks təşkilatının təsisçisi Culian Assanjın təhlükəsizliyini təmin etmək üçün azı 5 milyon dollar xərcləmişdir. O, 2012-ci ildə adıçəkilən Cənubi Amerika ölkəsinin Londondakı səfirliyində sığınacaq almışdır. Bu barədə “Guardian” qəzeti xəbər verir. Məlumata görə, Assanjın saxlanması üçün büdcə o vaxt hakimiyyətdə olan ölkə prezidenti Rafael Korrea və xarici işlər naziri Rikardo Patinyo tərəfindən təsdiqlənmişdir. Əvvəlcə “Qonaq”, sonra isə “Hotel” adlandırılmış əməliyyat üçün Ekvador hökuməti hər ay təxminən 66 min dollar xərcləmişdir.

Xatırladaq ki, Culian Assanj 2012-ci ildə Ekvadorun Londondakı diplomatik missiyasından sığınacaq istəmişdir.

### Tyantszində süni intellekt layihələrinə 100 milyard yuan ayrılacaq



Çinin şimalında yerləşən Tyantszin şəhərinin administrasiyası süni intellekt sahəsini maliyyələşdirmək üçün 100 milyard yuan (15,7 milyard dollardan çox) ayırmağı planlaşdırır. Bu barədə TASS agentliyi xəbər verir.

Məlumata görə, həmin vəsait “ağıllı” robot texnikası, texniki və proqram təminatı kimi yeni sahə növlərinə xərclənəcək. Təxminən 30 milyard yuan (4,7 milyard dollar) “ağıllı” avadanlığın yaradılmasına və ənənəvi istehsal müəssisələrinin təkmilləşdirilməsinə ayrılacaq. Bu barədə məlumat verən şəhərin vitse-meri Sun Venkuy qeyd etmişdir ki, həmin maliyyəşdirmə xətti ilə həmçinin elmi təşkilatlara tədqiqat işləri üçün qrantların ayrılması planlaşdırılır. Hər bir elmi tədqiqat institutu üçün ayrılan vəsaitin maksimal məbləği 30 milyon yuan (4,7 milyon dollar) təşkil edəcək.

### Azərbaycana yarım milyon saxta aksiz markası gətirən şəxslər ifşa olunublar



Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Dövlət Gömrük Komitəsi tərəfindən həyata keçirilmiş birgə əməliyyat tədbirləri nəticəsində Azərbaycan-Gürcüstan sərhədindən gömrük nəzarətindən gizli qaçaqmalçılıq yolu ilə Azərbaycana keçirilən, qanunsuz və saxta spirtli içki istehsalı üçün nəzərdə tutulan təxminən 500 min ədəd saxta aksiz markası aşkarlanaraq götürülüb.

DTX-nın ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, araşdırmalar zamanı saxta aksiz markalarını sifariş verib gizli surətdə çatdırılmasını təşkil edən, ölkədə saxta aksiz markalarının qanunsuz dövriyyəsi ilə məşğul olan Azərbaycan Respublikası vətəndaşları Mehdiyev İntiqam Hüseyn oğlu və Nəcəfov Ruslan Həmzə oğlu müəyyənləşdirilərək cinayət məsuliyyətinə cəlb olunublar.

Başlanılmış cinayət işi üzrə araşdırmalar davam edir.

Azərbaycan Respublikasında vətəndaşların sağlamlığına qəsd edən hüquqazidd əməllərin qarşısı bundan sonra da qətiyyətlə alınacaq.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi məhkəmə aparatının Beynəlxalq əlaqələr şöbəsinin baş məsləhətçisi Eldar Məlik-Abbasova anası

**ƏDİBƏ SƏFƏR QIZI MƏLİK-ABBASOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin rektorluğu kimya elmləri doktoru, professor

**ALLAHYAR BƏXTİYAR OĞLU YOLÇUYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin rektorluğu “SABAH” mərkəzinin rəhbəri, dosent İradə Süleymanovaya anası

**RƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"GİLAN HOLDİNG"in rəhbərliyi və kollektivi Nazim Məmmədova qardaşı

**MALİK MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Apelyasiya Məhkəməsinin sədri və məhkəmənin kollektivi Ali Məhkəmənin sabiq hakimi, əməkdar hüquqşünas

**OQTAY MAQSUDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8770
Sifariş 1434